20 aprel 2022 №30 (1903) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Hər iki tərəfin müsbət şərhindən sonra ciddiyyəti masa üzərində sübuta yetirməliyik



Mən ümumilikdə Brüsseldəki görüşün nəticələrini müsbət hesab edirəm. Mən bunu aprelin 12-də ictimaiyyətə açıqladım. Növbəti gün Ermənistanın baş naziri də normallaşma prosesi və Ermənistanın Azərbaycanın irəli sürdüyü 5 prinsipi qəbul etməsi barədə açıq şəkildə danışdı. Bu, prosesdə, həqiqətən də, daha bir dönüş nöqtəsidir.

Prezident İlham Əliyev bu sözləri aprelin 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.

Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin başlanğıcı ilə bağlı razılığa gəlmək imkanı verən ab-hava yaratdığına görə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelə minnətdarlığını çatdırmağı xahiş edən dövlət başçısı bildirib ki, Brüssel görüşü başlanğıc nöqtəsi idi. "Çünki biz sərhəd üzrə komissiyaların və eyni zamanda, sülh sazişi üzrə işçi qrupların yaradılması barədə razılığa gəldik. Biz bununla bağlı əvvəllər də danışırdıq və bildiyiniz kimi, İkinci Qarabağ müharibəsinin bitməsindən sonra Azərbaycanın mövqeyi həmişə ondan ibarət idi ki, biz sülh sazişi ilə bağlı danışıqlara başlamalıyıq. Hesab edirəm ki, rəsmi başlanğıc nöqtəsi aprelin 6-da Brüsseldə baş tutdu. O vaxtdan bəri biz işləyirdik, Xarici İşlər Nazirliyi çalışırdı və mənim administrasiyam sizin komandanızla təmasda idi və biz razılaşdığımız kimi, başlamağa hazırıq. Hesab edirəm ki, bu irəliləyişi davam etdirməyimiz və hər iki tərəfin razılaşmalara riayət etməsi mühüm əhəmiyyət kəsb edir", – deyə İlham Əliyev vurğulayıb.

Prezident qeyd edib ki, Ermənistan tərəfi ilə aydınlaşdırılmasına ehtiyac olan məsələlərdən biri də Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyalar məsələsidir. Dövlət başçısı diqqətə çatdırıb ki, Azərbaycan tərəfi Ermənistanla sərhədədək həm dəmiryolunu, həm də avtomobil yolunun çəkilişini gələn ilin sonunadək başa çatdıracaq: "Lakin əfsuslar olsun ki, Ermənistanda onlar heç bu işin texniki-iqtisadi əsaslandırılmasına başlamayıblar, bu da prosesin ləngiyə bilməsini göstərir".

Prezident bildirib ki, Brüssel danışıqları ilə bağlı hər iki tərəfin müsbət şərhləri olub: "İndi hər iki tərəfin bu rəsmi açıqlamasından sonra biz ciddiyyətimizi masa üzərində sübuta yetirməliyik. Burada biz Avropa İttifaqının, xüsusilə də artıq prosesə dərindən cəlb olunmuş Prezident Şarl Mişelin səylərinə çox ümid edirik".

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi qeyd edib ki, biz razılaşdırılmış məsələlərin həyata keçirilməsi və davam etdirilməsinin təmin olunması üzərində işləməliyik. "Mənim səfərimin məqsədi bundan ibarətdir" deyən Toivo Klaar Bakıdan sonra həftənin ikinci yarısında İrəvana da gedəcəyini bildirib.

## Təmizlənən heykəllər – tarixi irsə qayğı

### Beynəlxalq Abidələr və Tarixi Yerlər Günündə nəcib bir aksiyaya start verildi

Paytaxtda görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirən, tarixi hadisələri yaddaşlarda təzələyən heykəllərə, abidə komplekslərinə baxanda bu sənət nümunələrinin bir də Bakı küləyi ilə üzərlərinə hopan toz-torpaqdan, his-tüstüdən və ilaxır səbəblərdən necə çirkləndiyinin də şahidi olmuşuq. Abidələr tarixi irsdir və onlara diqqət qoruma-mühafizə, tanıtma-təbliğetmə ilə yanaşı, ən sadə bir şeyi – vaxtaşırı yuyub-təmizləməyi də ehtiva edir, əslində...




Aprelin 18-də – Beynəlxalq Abidələr və Tarixi Yerlər Günündə Mədəniyyət Nazirliyi, "Bakı Abadlıq Xidməti" MMC və Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Heykəlləri qoruyaq" şüarı altında nəcib bir aksiya – "Təmiz heykəl" adlı maraqlı və praktik layihə həyata keçirildi. Layihəyə Xurşidbanu Natəvanın Bakıdakı heykəlinin təmizlənməsi ilə başlanıldı.

Aksiyaya mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, elm, mədəniyyət xadimləri, nazirliyin əməkdaşları və digər qonaqlar qatılmışdı.

Sevda Məmmədəliyeva çıxış edərək Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü haqqında söz açdı. Bildirdi ki, hər il bu əlamətdar gün münasibətilə qoruqlarda, tarixi məkanlarda abidələrin və tarixi yerlərin qorunması, təbliği məqsədilə müxtəlif tədbirlər, sərgilər təşkil edilir: "Abidələrin qorunması və gələcək nəsillərə çatdırılması Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın daim diqqət mərkəzindədir. Məhz bu diqqətin sayəsində Bakıda və regionlarda abidələr tədqiq olunur, bərpa edilir...".

"Təmiz heykəl" layihəsi haqqında məlumat verən nazir müavini aksiyanın yalnız heykəllərin təmizlənməsini nəzərdə tutmadığını diqqətə çatdırdı. Bildirdi ki, əsas məqsədimiz həm də heykəlləri ucaldılan görkəmli şəxsiyyətlərimiz haqqında ictimaiyyəti, xüsusilə gənc nəsli məlumatlandırmaqdır.

davamı səh. 2-də

## Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi

Azərbaycanın dünya şöhrətli bəstəkarı, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Əmirovun (1922-1984) 100 illik yubileyi bu il dövlət səviyyəsində, həmçinin UNESCO-da geniş şəkildə qeyd olunacaq. Artıq yubiley tədbirlərinə başlanıb.

Aprelin 15-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Fikrət Əmirovun 100 illiyi münasibətilə konsert və bəstəkarın musiqilərindən ibarət albomun təqdimatı keçirildi.




Mərasimdə Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, təhsil naziri Emin Əmrullayev, mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, tanınmış mədəniyyət və incəsənət xadimləri, digər qonaqlar iştirak edirdilər.

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva çıxışında diqqətə çatdırdı ki, bu ilin noyabr ayında Fikrət Əmirovun anadan olmasının 100 ili tamam olur. Prezident İlham Əliyev dahi bəstəkarın 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamın icrası ilə əlaqədar hazırlanmış illik plana əsasən, bu gün bəstəkarın yubileyinə həsr olunmuş ilk geniş tədbir keçirilir.

davamı səh. 3-də

## Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş forum

### "İşğal zamanı tarix-mədəniyyət abidələrimizin əksəriyyəti tamamilə dağıdılıb"

Aprelin 18-də Beynəlxalq Muğam Mərkəzində Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş forum keçirildi.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurası (İCOMOS) Azərbaycan Milli Komitəsinin birgə təşkilatçılığı ilə gerçəkləşən foruma İCOMOS-un vitse-prezidenti Zeynəb Gül Ünal da qatılmışdı.

İştirakçılar əvvəlcə işğal zamanı Ermənistan tərəfindən dağıdılmış abidələr və tarixi məkanların fotolarından ibarət sərgi ilə tanış oldular.




Forumun açılışında çıxış edən Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün əhəmiyyətindən danışdı. Qeyd etdi ki, təkcə XX əsrdə baş vermiş iki dünya müharibəsi nəticəsində misli görünməmiş dağıntılar olub. Hazırda dünyada minlərlə abidə məhv olmaq təhlükəsi ilə üz-üzədir: "Təəssüf ki, ölkəmizin ayrılmaz tərkib hissəsi olan Qarabağda 30 ilə yaxın davam edən işğal abidələrə də təsirsiz ötüşməyib. Tarix-mədəniyyət abidələrimiz Ermənistan tərəfindən vandalizmə məruz qalıb, böyük əksəriyyəti yer üzündən silinib. Bu baxımdan Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün təsis olunması və hər il qeyd edilməsi böyük əhəmiyyətə malikdir".

davamı səh. 2-də

## Şuşada Azərbaycan və Özbəkistan şairlərinin poeziya məclisi



28 ildən sonra erməni işğalından azad olunan mədəniyyət paytaxtımız Şuşada Azərbaycan və Özbəkistan şairlərinin iştirakı ilə "Məclisi-fəramuşan" poeziya məclisi təşkil edilib.

Əvvəlcə Qarabağ ədəbi məktəbinin tanınmış nümayəndələrdən Molla Pənah Vaqifin məqbərəsi ziyarət olunub, Vaqifin, habelə şairə Xurşidbanu Natəvanın büstlərinin qarşısına gül-çiçək dəstələri qoyulub.

Məclisi giriş sözü ilə açan Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov AMM-in təşəbbüsü və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən tədbirin əhəmiyyəti barədə danışıb. Qeyd edib ki, iki ölkənin mədəniyyət, ədəbiyyat nümayəndələri tarixi Şuşa şəhərində bir araya gəlməklə eyni zamanda dünyaya böyük mədəniyyətimizi, birliyimizi nümayiş etdirilər.

davamı səh. 2-də

## Milli kinomuzda öz dəst-xətti olan rejissor

Aprelin 16-da görkəmli kinorejissor və ssenarist, Dövlət mükafatı laureatı, Xalq artisti Eldar Quliyevin (1941-2021) vəfatından bir il ötdü. Bu münasibətlə aprelin 15-də Dövlət Film Fondunda anım tədbiri keçirildi. Tədbirdə Eldar Quliyevin həmkarları, onunla çəkiliş meydançasında çiyin-çiyinə çalışmış kino xadimləri iştirak edirdi.



Qonaqlar əvvəlcə kinorejissorun yaradıcılığı ilə bağlı fotolardan ibarət sərgi ilə tanış oldular.

Anım tədbirini Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev açaraq Azərbaycan kinosu tarixinə öz dəst-xətti ilə adı yazılan Eldar Quliyevin yaradıcılığından bəhs etdi: "Bir ildir böyük ustad Eldar Quliyev aramızda deyil. Görkəmli sənətkarın xatirəsinə bu tədbiri təşkil etməyi özümüzə borc bildik. Ötən il Dövlət Film Fondu tərəfindən kinorejissorun şəxsi arxiv fondu yaradılıb. Bu fondda onun nadir fotoşəkilləri, əlyazmaları, ssenariləri və digər materiallar yer alıb. Fonda materialları tanınmış operator və fotoqraflar Pərviz Quliyev, Yuri Varnovski, Rafiq Qəmbərov, kinoşünas Aydın Kazımzadə təhvil verib. Bu gün biz bu fotoları sərgidə nümayiş etdiririk".

davamı səh. 6-da

Otuzillik işğaldan sonra dirçələn torpaq



səh. 3

Mədəniyyət Nazirliyində Britaniya Parlamenti Lordlar Palatasının üzvləri ilə görüş

səh. 2



"Xəzinə" tapılıbsa, deməli...

səh. 5

## İkinci Dünya müharibəsində Qələbənin 77-ci ildönümü ilə bağlı sərəncam

1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1 500 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Prezident İlham Əliyev bununla bağlı aprelin 19-da sərəncam imzalayıb.

Sərəncamın icrası üçün Prezidentinin ehtiyat fondundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 3,5 milyon manat vəsait ayrılıb.

Nazirlikdən bildirilib ki, sərəncam İkinci Dünya müharibəsinin iştirakçısı olmuş 96 nəfərə və digər kateqoriya üzrə 4395 nəfərə şamil olunacaq.

## Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib

Prezident Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın növbəti iclası keçirilib.

Samir Nuriyev Azərbaycan Respublikası Prezidenti tərəfindən ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə zamanı verilmiş tapşırıqları diqqətə çatdıraraq, bu tapşırıqların növbəti bir il üçün Əlaqələndirmə Qərargahının fəaliyyətinin əsasını təşkil edəcəyini deyib.

İclasın gündəliyində yer alan məsələlərlə bağlı məruzələr dinlənilib, həmçinin işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının qiymətləndirilməsi, dayanıqlı məskunlaşma, məşğulluq, iqtisadi inkişaf perspektivləri və digər məsələlərlə bağlı müzakirələr aparılıb.

Daha sonra Nazirlər Kabineti və Əlaqələndirmə Qərargahı üzvlərinin martın 2-də keçirilən Şuşa müşavirəsindən irəli gələn məsələlər, o cümlədən şəhərsalma, yay mövsümünün yaxınlaşması ilə bağlı su təchizatı məsələləri, tarix və mədəniyyət abidələrinin bərpası və digər məsələlər ətraflı müzakirə edilib, vəzifələrin icrası ilə əlaqədar növbəti addımlar müəyyən olunub və müvafiq tapşırıqlar verilib. Bütün məsələlərin həllində hədəfyönümlü və sistemli fəaliyyətin, habelə qurumlararası, o cümlədən Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri ilə əlaqələndirmənin əhəmiyyəti qeyd olunub.

## Şuşada Azərbaycan və Özbəkistan şairlərinin poeziya məclisi

əvvəli səh. 1-də



Azərbaycan Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli Ermənistanın işğalından azad olunan Şuşanın mədəni həyatının get-gedə canlandığını, azad olunan Şuşaya yenidən mədəniyyətimizin qayıtdığını vurğulayıb. Prezident İlham Əliyev tərəfindən Şuşanın Azərbaycan mədəniyyətinin paytaxtı elan olunduğunu qeyd edən A.Marifli bildirib ki, Şuşa TÜRKSOY tərəfindən 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilib. Gələn il bütün Türk dünyasının qəlbi Şuşada döyünəcək.

Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq məsələlər üzrə katibi Səlim Babullaoğlu ədəbiyyatın hər zaman Türk dünyasının mədəni həyatında rolunun mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

Özbəkistan Yazıçılar Birliyinin sədr müavini, şair Qayrat Macid Qarabağın, Şuşanın hər guşəsində türk mədəniyyətinin nişanələrini gördüyünü, Şuşanın, həqiqətən də, zəngin mədəniyyətə, sənətə, ədəbiyyata malik olduğunu vurğulayıb. Bildirib ki, 2023-cü ildə Türk dünyası üçün mədəniyyət paytaxtı, sənət məbədi olan Şuşaya həsr olunmuş tədbirlərin şahidi olacağıq.

Filologiya üzrə fəlsəfə doktoru Kərimulla Məmmədzadə Qarabağda XIX-XX əsrlərdə mövcud olmuş şairlər məclisinin tarixi haqqında məlumat verib.

Azərbaycanın Xalq şairi Nəriman Həsənzadə, şair İlqar Fəhmi, Sayman Aruz, özbək şairi Qayrat Macid, tərcüməçi-ədəbiyyatşünas alim Babaxan Şərif Vətən, Qarabağ, ədəbiyyat, sənət, Türk dünyası, birlik, həmrəylik mövzusunda şeirlər söyləyiblər.

Qeyd edək ki, şairlər məclisinin Azərbaycan Televiziyası tərəfindən videoçəkilişləri aparılıb və "Körpü" verilişində yayımlanacaq.

## "Görünməyən qəhrəmanlar" — silsilənin ikinci hissəsi çəkilir

Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Azərbaycanfilm" Kinostudiyası və İctimai Televiziyanın birgə həyata keçirdiyi "Görünməyən qəhrəmanlar" sənədli filmlər layihəsi davam edir.

Kinostudiyadan bildirilib ki, sənədli filmlər silsiləsinin ikinci hissəsi çəkilir. Silsilənin ikinci hissəsində "Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsi", "Dövlət Təhlükəsizliyi Xidməti", "Mülki həkimlər", "Hərbi həkimlər" və "Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu" adlı sənədli filmlər yer alır.

Filmlərin süjet xəttində xalqımızın şanlı tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsi və əldə etdiyimiz Qələbədə müzəffər Ordumuzla yanaşı onu dəstəkləyən digər birliklər, qüvvələr və böyük fədakarlıq göstərən əsgər və zabitlərimizi ölümün pəncəsindən alıb həyata qaytaran tibb işçilərindən bəhs edilir.

# Mədəniyyət naziri Britaniya Parlamenti Lordlar Palatasının üzvləri ilə görüşüb

Mədəniyyət naziri Anar Kərimov aprelin 19-da ölkəmizdə səfərdə olan Britaniya Parlamenti Lordlar Palatasının üzvü Lord Malkolm Bryus, Lord Donald Henkey və Oksford Universitetinin müəllimi doktor Culian Fautless ilə görüşüb.



Görüş zamanı ölkəmizlə Britaniya arasında mədəniyyət sahəsində əlaqələrin perspektivləri, həyata keçirilən beynəlxalq layihələr və Qarabağda bərpa işləri, Azərbaycanın dağıdılmış memarlıq abidələri və müsəlman ziyarətgahlarının bərpası istiqamətində quruculuq işləri barədə söhbət aparılıb.

Abidələrin qorunması və bərpası sahəsində beynəlxalq əməkdaşlıq istiqamətində UNESCO-nun Dünya İrs Mərkəzinin məşvərətçi orqanı olan, 100-dən çox milli komitəni, 30-dək beynəlxalq elmi komitəni və 12 minə yaxın fərdi üzvü özündə birləşdirən dünya miqyaslı qeyri-hökumət təşkilatı İCOMOS-un rolu xüsusi vurğulanıb.

Nazir Anar Kərimov Britaniya hökuməti ilə ölkəmiz arasında humanitar və mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdiyini vurğulayıb.

Britaniya Lordlar Palatasının üzvləri ölkəmizə səfərindən şad olduqlarını və Böyük Britaniya-Azərbaycan əlaqələrinin bundan sonra da yüksələn xətt üzrə davam edəcəyinə əminliklərini bildiriblər.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

əvvəli səh. 1-də

Azad Cəfərli bu gün Azərbaycan xalqının əsrlər boyu yaratdığı mədəni irs nümunələrindən üçünün – Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə İçərişəhər, Qobustan abidələri və Şəki Xan sarayı ilə birlikdə şəhərin tarixi mərkəzinin UNESCO-nun Dünya İrsi Siyahısında yer aldığını diqqətə çatdırdı. Bildirdi ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında milli mədəni irsimizin qorunması, tədqiqi, gələcək nəsillərə çatdırılması, dünya miqyasında təbliği və eləcə də işğaldan azad olunmuş ərazilərdə yerləşən tarixi abidələrin bərpası istiqamətində böyük işlər görülür. Təkcə son bir neçə il ərzində Gəncə şəhərində Şah Abbas karvansarası, Şəkidə "Gileyli" məscidinin minarəsi və Bərdədə "Allah-Allah" türbəsi və Qazaxda "Sınıq körpü" abidələrində bərpa-konservasiya işləri aparılıb.

Çıxışının sonunda İCOMOS-un vitse-prezidenti Zeynəb Gül Ünala təşəkkürünü bildirən Dövlət Xidmətinin rəisi dedi: "Dünən biz birlikdə Ağdam şəhərini ziyarət etdik, orada işğal nəticəsində baş vermiş dağıntıları görməklə yanaşı, ərazidə yeni reallığa, dövlətimizin quruculuq işlərinə də şahidlik etdik".

Zeynəb Gül Ünal təmsil etdiyi qurumun fəaliyyəti haqqında ətraflı məlumat verdi. Bildirdi ki, İCOMOS mədəni irsin mühafizəsi, tarixi abidələrin bərpası üzrə fəaliyyət göstərən təşkilatdır və UNESCO-nun maddi mədəni irs məsələləri üzrə məşvərətçi qurumudur. İCOMOS memarlıq və arxeoloji irsin konservasiyası üçün nəzəri, metodoloji və elmi üsulların tətbiqinin stimullaşdırılması üzrə ixtisaslaşmış yeganə qlobal qeyri-hökumət təşkilatıdır. Qurum həmçinin memarlar, tarixçilər, arxeoloqlar, incəsənət tarixçiləri, coğrafiyaşünaslar, antropoloqlar, mühəndislər və şəhərsalma mütəxəssislərindən ibarət geniş beynəlxalq şəbəkədir.

# Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş forum



Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri, professor Elbay Qasımzadə çıxışında ölkəmizin tarix-mədəniyyət abidələrinin beynəlxalq müstəvidə təbliğatı məsələsinə diqqət çəkdi. Qeyd etdi ki, Prezident İlham Əliyevin böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir. O, mədəni irsin məruz qaldığı müxtəlif təbii təsirlərin qarşısının alınmasının vacibliyini də diqqətə çatdırdı.

***

Forum günün ikinci yarısında öz işini "İCOMOS və Azərbaycanın dünya əhəmiyyətli maddi mədəni irsi", "Azərbaycanda abidələrin bərpası və konservasiyası təcrübələri" və "Fövqəladə hallar zamanı mədəni irsin qorunması" mövzularında panel müzakirələrlə davam etdirdi.

İCOMOS Azərbaycan Milli Komitəsinin icraçı direktoru Rəşad Əliyevin moderatorluğu ilə keçən "İCOMOS və Azərbaycanın dünya əhəmiyyətli maddi mədəni irsi" mövzusunda paneldə Azad Cəfərli, Zeynəb Gül Ünal, İCOMOS Azərbaycan Milli Komitəsinin sədri Sədaqət Budaqova, UNESCO üzrə Azərbaycan Milli Komissiyasının nümayəndəsi Eltay Aslanov, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin aparat rəhbəri Riad Qasımov çıxış etdilər. Çıxışlarda diqqətə çatdırıldı ki, hazırda ölkəmizdə 82-si dünya, 2059-u ölkə və 4167-si yerli əhəmiyyətli olmaqla ümumilikdə 6000-dən çox daşınmaz tarix-mədəniyyət abidəsi dövlət mühafizəsindədir. Son illər ərzində ölkə ərazisində aparılmış monitorinqlər nəticəsində əvvəlki siyahılara daxil edilməyən 1400-dən çox tarix, memarlıq və arxeoloji əlamət daşıyan obyekt müəyyən edilərək yeni aşkar olunmuş tarix-mədəniyyət abidələri kimi qeydə alınıb. Bildirildi ki, yaxın vaxtlarda Abşeronun ən qədim və hündür qalalarından olan, dünya əhəmiyyətli tarixi abidə Böyük Mərdəkan qəsrinin və Tuba Şah məscidinin bərpasına başlanılacaq. Artıq bərpa ilə bağlı layihə sənədlərinin hazırlanması yekunlaşıb. Bərpa işləri Dövlət Xidməti ilə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) birgə əməkdaşlığı çərçivəsində həyata keçiriləcək.

Həmçinin qeyd olundu ki, 30 illik işğal dövründə heç bir beynəlxalq missiyanı işğal altında saxladığı Azərbaycan ərazilərinə buraxmayan Ermənistan dünya əhəmiyyətli tarix-mədəniyyət abidələrimizə də müdaxilə edib, onların tarixini saxtalaşdırmağa cəhd göstərib. Monitorinqlər nəticəsində baxış keçirilən tarix-mədəniyyət abidələri və tarixi, memarlıq, arxeoloji əlamət daşıyan obyektlərin əksəriyyəti işğalçılar tərəfindən tamamilə dağıdılıb. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə quruculuq işləri davam etdirilir. Yaxın vaxtlarda Ağdamda "İmarət" kompleksinin, Ağdam Cümə məscidi və Qiyaslı məscidinin bərpasına başlanılacaq. Vurğulandı ki, azad olunmuş ərazilərdəki dünya əhəmiyyətli, həmçinin digər tarix və mədəniyyət abidələrinin də qorunması, təbliği, eləcə də UNESCO-nun müvafiq siyahılarına salınması üçün işlər həyata keçirilir.

"Azərbərpa" Elmi Tədqiqat Layihə İnstitutunun direktoru Telman Kərimlinin moderatorluğu ilə keçən "Azərbaycanda abidələrin bərpa və konservasiyası təcrübələri" və Dövlət Xidmətinin rəis müavini Ağacavid Ramazanovun moderatorluğunda davam edən "Fövqəladə hallar zamanı mədəni irsin qorunması" mövzularında panel müzakirələrdə maraqlı fikir mübadiləsi aparıldı. Forumun sonunda il ərzində fəaliyyəti ilə seçilən gənc mədəni irs əməkdaşlarına fəxri fərmanlar təqdim olundu.

**Lalə Azəri**

# Təmizlənən heykəllər – tarixi irsə qayğı

### Beynəlxalq Abidələr və Tarixi Yerlər Günündə nəcib bir aksiyaya start verildi

əvvəli səh. 1-də

Vurğulandı ki, layihə Bakıda başlanılsa da, regionlarda da davam etdiriləcək: "Paytaxtda bu layihə çərçivəsində ilk olaraq X.Natəvanın heykəli təmizlənir. Bildiyiniz kimi, bu il görkəmli şairənin anadan olmasının 190 ili tamam olur. Bu münasibətlə ölkə başçısı tərəfindən müvafiq sərəncam imzalanıb. Sərəncama əsasən, il ərzində müxtəlif tədbirlər həyata keçiriləcək".

Sevda Məmmədəliyeva çıxışının sonunda layihədə iştirak edən hər kəsə minnətdarlığını bildirdi.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı, akademik Ömər Eldarov söylədi ki, Natəvanın heykəli müəllif kimi onun ilk monumental əsəri olduğu üçün çox dəyərlidir: "Natəvan məni elə ovsunladı ki, onun obrazını bütün zərifliyi ilə daşa həkk etməyə çalışdım".

Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Yusif Vəliyev bildirdi ki, qurumun məqsədlərindən biri də ölkəmizin mədəni irsinin, tarixi abidələrinin qorunması və onun dünya gəncləri, Azərbaycan könüllüləri arasında hər zaman təbliğ etməkdir: "Bu gün burada Mədəniyyət Nazirliyinin "Təmiz heykəl" layihəsində iştirak edən Azərbaycan könüllüləri bir daha dediyim fikirlərə sadiqlik nümayiş etdirəcəklər".





Dövlət İdarəçilik Akademiyası Siyasi idarəetmə fakültəsinin dekanı, professor Elçin Əhmədov azad olunmuş ərazilərimizdə abidələrin bərpasının dövlət siyasətinin prioritet istiqamətlərindən olduğunu dedi: "Natəvanın heykəlinə baxdıqca mən sanki Şuşaya səyahət edirəm. Bu gün mən bir şuşalı kimi qürur hissi keçirirəm. Çünki Qarabağımız, mədəniyyət paytaxtı Şuşamız artıq azaddır. İndi həm şuşalı görkəmli şəxsiyyətlərimizin, həm də Şuşa uğrunda döyüşərək şəhidlik zirvəsinə ucalan igidlərimizin ruhu şaddır".

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov bildirdi ki, bu abidələrin təmizlənməsinə peşəkar qurumlar tərəfindən mütəmadi olaraq nəzarət edilməlidir. Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə tədbir iştirakçılarını təbrik edən F.Xəlilov Natəvanın abidəsinin müəllifi Ömər Eldarova təşəkkürünü bildirdi.

Tarixçi Fuad Axundov heykəllərin yaradılmasında memarların rolundan danışdı. Qeyd etdi ki, bu il Azərbaycanda qoyulan ilk heykəlin 100 illiyi qeyd ediləcək: "Bu abidə Mirzə Ələkbər Sabirin ilk heykəlidir. Abidə heykəltəraş Yakov İosifoviç Keylixis tərəfindən qoyulub. Həmin heykəl hazırda Balaxanıdadır. 1958-ci ildə köhnə heykəlin yerinə Cəlal Qaryağdı bugünkü abidəni ucaldıb. Sabirin bəlkə heykəldən də gözəl postamenti var idi. 1958-ci ildə heykəl dəyişiləndə və Balaxanıya köçürüləndə onu adi bir tumbaya qoyublar".

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədov Natəvanın Azərbaycan tarixindəki mövqeyindən, mədəniyyət sahəsində gördüyü işlərdən danışdı.

Çıxışlardan sonra "Bakı Abadlıq Xidməti" MMC-nin əməkdaşları və könüllülərin iştirakı ilə Natəvanın heykəli təmizləndi. Heykəlin təmizlənməsinə digər tədbir iştirakçıları da qoşuldular.

"Təmiz heykəl" layihəsində Natəvanın (Məhəmməd Əmin Rəsulzadə küçəsi ilə Əziz Əliyev küçəsinin kəsişməsi, "Azərbaycan" kinoteatrının qarşısı) heykəli ilə yanaşı Nizami Gəncəvinin abidəsi (Səbail rayonu, dahi şairin adını daşıyan Ədəbiyyat Muzeyinin önü), Mirzə Ələkbər Sabir (İstiqlaliyyət küçəsi, Sabir bağı), Yusuf Məmmədəliyev (İstiqlaliyyət küçəsi), "İstiqlal" abidəsi (İstiqlaliyyət küçəsi), Hacı Zeynalabdin Tağıyev (Səbail rayonu, İçərişəhər metrosu) və Mirzə Fətəli Axundzadənin (Axundov bağı) də heykəlləri təmizləndi. Abidələrin önünə tədbir iştirakçıları tərəfindən gül dəstələri düzüldü.

**Nurəddin Məmmədli**

# Mədəniyyət sahəsinin dayanıqlı inkişafını təmin etmək

Mədəniyyət naziri Anar Kərimov aprelin 15-də Xaçmazda vətəndaşlarla görüşdən sonra rayonda mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olub.

Nazir Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyinə və Xaçmaz Dövlət Rəsm Qalereyasına baxış keçirib. Məlumat verilib ki, 2013-cü ildən yeni binada fəaliyyət göstərən Tarix-Diyarşünaslıq Muzeyinin binası öz arxitekturası ilə ölkəmizin memarlıq mənzərəsində fərqlənir. Muzey binasının şəhərdəki "Şəxsiyyətlər parkı" ərazisində yerləşməsi "muzey içində muzey" mənzərəsi yaratmaqla ziyarətçilərin diqqətini cəlb edir.





2007-ci ildə fəaliyyətə başlayan Dövlət Rəsm Qalereyası isə 2014-cü ildə yeni binasında qərar tutub. Ümumilikdə 1050 kvadratmetr sahəsi olan qalereyanın ekspozisiya zalında 100-dən çox təsviri sənət nümunəsi sərgilənir.

Anar Kərimov Xaçmaz rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanasına da baş çəkib. Qeyd olunub ki, MKS-nin 560 min nüsxədən çox kitab fondu var.

Xaçmaz şəhər uşaq musiqi və incəsənət məktəblərinin fəaliyyəti ilə tanışlıq zamanı nazirə məlumat verilib ki, 2021-ci ildə əsaslı təmir olunan musiqi məktəbində 435 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 104 müəllim məşğul olur. Uşaq incəsənət məktəbində musiqi, xoreoqrafiya və rəssamlıq şöbələri fəaliyyət göstərir. Burada fortepiano, xanəndəlik, skripka, tar, qarmon, nağara, kamança, klarnet, rəssamlıq, xoreoqrafiya fənləri tədris olunur.

Nazir hər iki təhsil ocağında tədrisin müasir tələblər səviyyəsində qurulması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzinə gələn Anar Kərimov burada yaradılan şəraitlə tanış olub. Bildirilib ki, ümumi sahəsi 1014 kvadratmetr olan üçmərtəbəli mərkəz 15 otaq və 350 yerlik zaldan ibarətdir.

Səfər zamanı dini abidə və Dəmiryol vağzalının tarixi binasına da baxış keçirilib. Qeyd olunub ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində inşa olunan bina yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına alınıb.

Xaçmaz rayon Heydər Əliyev Mərkəzinə gələn nazirə müəssisənin fəaliyyəti barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, 2005-ci ildə muzey kimi fəaliyyətə başlayan mərkəz 2016-cı ildən müasir və qədim Şərq memarlığı üslubunda tikilmiş yeni binada fəaliyyətini davam etdirir. Hazırda mərkəzin fondunda 700-dən artıq eksponat var.

Nazir Heydər Əliyev Mərkəzində Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən rayonlarında fəaliyyət göstərən mədəniyyət işçiləri ilə görüş keçirib. Görüşdə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və nazirliyin məsul əməkdaşları da iştirak ediblər.

Anar Kərimov bildirib ki, Xaçmaz rayonuna səfərinin məqsədi vətəndaşların müraciətlərini dinləməklə yanaşı, mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olmaq, mövcud imkanları müəyyənləşdirmək, mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən şəxsləri nazirliyin prioritetləri və qarşıya qoyulan məqsədləri barədə yerində məlumatlandırmaqdır. Başlıca vəzifə həm də yerlərdə çalışan insanları nazirlik tərəfindən aparılan islahatlara birbaşa cəlb edərək mədəniyyət sahəsinin dayanıqlı inkişafına töhfə verməkdir.

Görüş zamanı regionun mədəniyyət müəssisələrində mövcud olan problemlərdən söz açılıb, onların həlli yolları ilə bağlı təkliflər dinlənilib. Anar Kərimov bölgələrdə sahənin rəqəmsallaşdırılması ilə bağlı işlərin aparılmasının, mədəniyyət işçiləri arasında peşəkarlıq səviyyəsinin, təşəbbüskarlığın artırılmasının vacibliyini diqqətə çatdırıb.

Nazir çıxışının sonunda problemlərin aradan qaldırılması, müəssisələrin daha səmərəli fəaliyyətinin təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.

# Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi

## Filarmoniyada Fikrət Əmirovun 100 illiyi münasibətilə konsert

əvvəli səh. 1-də

Nazir müavini qeyd etdi ki, Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi Fikrət Əmirovun zəngin yaradıcılığı var: "Qüdrətli sənətkar mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr bəxş edib. Fikrət Əmirovun "Şur", "Kürd ovşarı", "Gülüstan Bayatı-Şiraz" simfonik muğamları, "Nizami" simfoniyası, "Sevil" operası, "Min bir gecə" baleti, doğma Vətəni tərənnüm edən "Azərbaycan kapriççiosu", "Azərbaycan süitası", "Azərbaycan qravürləri" və digər əsərləri bəstəkarın musiqi irsinin qiymətli səhifələrindəndir. Onun əsərləri dünyanın bir çox ölkələrinin konsert salonlarında səslənib, teatr səhnələrində tamaşaya qoyulub".




Vurğulandı ki, bəstəkarın 100 illiyinin UNESCO-nun yubiley proqramına daxil edilməsi Azərbaycan musiqisinə, Azərbaycan bəstəkarlıq məktəbinə, Fikrət Əmirov sənətinə beynəlxalq miqyasda verilən yüksək qiymətin təzahürüdür: "Fikrət Əmirov musiqisi dərin köklərə, milli zəminə bağlıdır. O, şuşalı məşhur muğam bilicisi, görkəmli tarzən Məşədi Cəmil Əmirovun ailəsində, zəngin musiqi, sənət mühitində böyüyüb. Xalq musiqisi uşaqlıqdan onun qanına, canına hopub. Buna görə də Fikrət Əmirovun yaradıcılığı Qarabağın qədim və zəngin musiqi mədəniyyətindən qaynaqlanır".

Sevda Məmmədəliyeva onu da diqqətə çatdırdı ki, yubiley ilində Mədəniyyət Nazirliyinin təşkilatçılığı və dəstəyi ilə bəstəkarın fortepiano əsərlərindən ibarət musiqi albomu işıq üzü görüb: "Albomda ilk dəfə olaraq Fikrət Əmirovun fortepiano üçün yaratdığı bütün əsərlər yer alıb. Əsərlərin ifaçısı Xalq artisti, tanınmış pianoçu Yeganə Axundovadır. Xarici və yerli auditoriyaya ünvanlanan albom Azərbaycan mədəniyyətinin, Fikrət Əmirov musiqisinin təbliğinə töhfədir".

Sonra konsert proqramı başlandı. Konsertdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor – Əməkdar artist Fuad İbrahimov) Fikrət Əmirovun əsərlərini ifa etdi. İlk olaraq bəstəkarın "Min bir gecə" baletindən fraqment səsləndirildi.

Səhnəyə dəvət alan Xalq artisti Yeganə Axundova Fikrət Əmirovun (Elmira Nəzirova ilə birgə) "Fortepiano və orkestr üçün ərəb mövzuları əsasında konsert"ini böyük məharətlə ifa etdi. Orkestr bəstəkarın ecazkar "Kürd ovşarı" simfonik muğamını səsləndirdi.

Yubiley konsertinə Fikrət Əmirovun möhtəşəm "Azərbaycan kapriççiosu" ilə yekun vuruldu. Bütün ifalar alqışlarla qarşılandı.

**Nurəddin Məmmədli**

# Otuzillik işğaldan sonra dirçələn torpaq

## Gürcüstanlı qonaqlar Cəbrayıl, Füzuli, Şuşa və Ağdamda olublar

Gürcüstandan gələn heyət aprelin 15-də işğaldan azad edilən Cəbrayıl və Füzuli rayonlarında olublar. Qonaqlar əvvəlcə Cəbrayıl rayonu ərazisində minalardan təmizlənmə prosesini izləyiblər.

Füzuli rayonuna gələn qonaqlar Merdinli kəndi ərazisində yerləşən məscidə baxış keçiriblər. Bildirilib ki, digər yaşayış yerləri kimi, Merdinli kəndi də işğal zamanı yerlə yeksan edilib, məscidlər isə tövlə kimi istifadə olunaraq təhqirə məruz qalıb.

Nümayəndə heyəti Füzuli Beynəlxalq Hava Limanı ilə də tanış olub. Bildirilib ki, 2021-ci ildə cəmi doqquz ay ərzində inşa olunan hava limanı xarici ölkələrdən təyyarələr qəbul edir. Bundan başqa, işğaldan azad olunan Zəngilanda da hava limanı inşa olunur.

Füzuli şəhərinin xarabalığı gürcüstanlı qonaqlarda erməni işğalının nəticələri barədə real təsəvvür yaradıb.

Gürcüstan nümayəndə heyəti aprelin 16-da Şuşa şəhərinə səfər edib. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qonaqları qarşılayaraq onlara şəhərdə görülən işlər barədə məlumat verib. Bildirib ki, otuz ilə yaxın sürən işğaldan sonra Şuşada şəhərin tarixi simasının, mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Şuşa şəhər qala divarları ilə tanış olan nümayəndə heyətinə Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Gürcüstanlı opera müğənnisi İamze Jakeli qala divarları qarşısında Elza İbrahimovanın "Ey Vətən" mahnısını oxuyub.



Qonaqlar Xurşidbanu Natəvanın evi və Xan qızı bulağı olan ərazi ilə tanış olub, Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəlləri olan mərkəzi meydana gəliblər.

Qonaqlar Bülbülün Şuşada 1982-ci ildə açılan, 1992-ci ildə şəhərin işğalı zamanı erməni vandalizminə məruz qalan, Şuşa azad edildikdən sonra bərpa olunan və 2021-ci ildə yenidən qapılarını ziyarətçilərə açan ev-muzeyi ilə də tanış olublar. Məşhur vokalçının ocağında gürcü müğənni İamze Jakeli Polad Bülbüloğlunun "Gəl, ey səhər" mahnısını ifa edib.

Nümayəndə heyəti Molla Pənah Vaqifin muzey-məqbərəsi ilə də tanış olub, Cıdır düzündən açılan əsrarəngiz mənzərəni seyr ediblər.

Gürcüstanlı qonaqlar işğaldan azad olunmuş Ağdam şəhərinə də səfər edərək burada ermənilərin törətdikləri vəhşiliklərin izləri ilə tanış olublar. İmarət kompleksinə, Ağdam Cümə məscidinə, Dram teatrının qalıqlarına baxış keçirilib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahına gələn qonaqlara Ağdam şəhərinin Baş planı, burada həyata keçirilən bərpa-quruculuq işləri barədə də məlumat verilib.

# Vətəndaşların növbəti qəbulu Xaçmazda keçirilib

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu keçirilir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həlli ilə əlaqədar müvafiq addımlar atılır.



2022-ci ilin aprel ayı üzrə şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov aprelin 15-də Xaçmaz şəhərində Xaçmaz və Şabran rayonlarının sakinləri ilə görüşüb.

Qəbuldan öncə mədəniyyət naziri Anar Kərimov və Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev ümummilli lider Heydər Əliyevin Xaçmaz şəhərindəki abidəsini ziyarət edərək önünə tər çiçəklər qoyublar.

Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində keçirilən qəbulda mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və nazirliyin məsul əməkdaşları da iştirak ediblər.

Qəbulda nazir Anar Kərimov Xaçmaz və Şabran rayonları sakinlərinin müraciətlərini, ayrı-ayrı məsələlərə dair xahiş və təkliflərini dinləyib. Vətəndaşların müraciətləri əsasən əməyin qiymətləndirilməsi, işlə təmin olunma, iş yerinin dəyişdirilməsi və digər məsələlərlə bağlı olub.

Nazir müraciətlərdə qaldırılan məsələlərin operativ şəkildə araşdırılması və qanunvericiliyə uyğun həlli ilə bağlı müvafiq tapşırıqlar verib.

# Gürcüstan nümayəndə heyəti Gəncəyə səfər edib

Gürcüstanın mədəniyyət xadimləri, ekoloq, türkoloq və blogerlərdən ibarət nümayəndə heyətinin ölkəmizə səfəri haqqında xəbər vermişdik. Azərbaycanın Gürcüstandakı Səfirliyinin təşkilatçılığı və SOCAR-ın Gürcüstan nümayəndəliyinin dəstəyi ilə gerçəkləşən səfər ölkəmizin işğaldan azad edilmiş əraziləri ilə tanışlıq məqsədi daşıyır.

Nümayəndə heyəti Füzuli, Cəbrayıl, Şuşa və Ağdam şəhərlərinə səfər edərək 30 illik işğal zamanı ermənilər tərəfindən törədilən vandalizmlə tanış olublar.

Daha sonra Gəncə şəhərinə səfər edən gürcü qonaqlar İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində dağılan əraziyə baş çəkiblər. Qonaqları Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, millət vəkilləri Pərvin Kərimzadə və Müşfiq Cəfərov, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov qarşılayıblar.



Niyazi Bayramov Ermənistanın Gəncə şəhərində törətdiyi terror barədə qonaqlara ətraflı məlumat verib. Bildirilib ki, Gəncə şəhərinin ardıcıl raket hücumlarına məruz qalması nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 130-dan çox dinc sakin isə yaralanıb. Qonaqlar Ermənistanın törətdiyi müharibə cinayətlərinin ağır nəticələri ilə yerində tanış olub, həlak olan mülki şəxslərin xatirəsinə ehtiram əlaməti olaraq əraziyə tər çiçəklər düzüblər.

Gəncə Dövlət Dram Teatrına gələn nümayəndə heyəti sənət ocağının yeni istifadəyə verilən binası və Gəncə Teatr Muzeyində sərgilənən eksponatlarla tanış olublar. Sonra gürcüstanlı ifaçılar Gəncənin mədəniyyət xadimləri ilə birlikdə teatrın səhnəsində konsert proqramı ilə çıxış ediblər. Konsert zamanı Gürcüstanın xalq mahnı və rəqsləri ilə yanaşı, qonaqlar tərəfindən Azərbaycan xalq mahnısı "Sarı gəlin" və bəstəkar Qəmbər Hüseynlinin "Cücələrim" mahnısı ifa olunub. Nizami Gəncəvinin sözlərinə yazılmış romanslar, xarici ölkə bəstəkarlarının əsərləri səsləndirilib.

Gürcü ifaçıları Xalq artistləri Fərhad Bədəlbəyli, Siyavuş Kərimi, Murad Adıgözəlzadə, Əməkdar müəllim Naibə Şahməmmədova müşayiət ediblər. Qonaq musiqiçilərə gəncəli sənətçilər – Xalq artisti Sevinc İbrahimova, Zenfira Zeynalova, Kəmalə Tağızadə, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova da qoşulub. Azərbaycan və gürcü dillərində mahnılar səslənib.

# Bülbülün Memorial Muzeyində "Şuşa İli" konserti

"Şuşa İli" münasibətilə ölkəmizin mədəniyyət ocaqlarında müxtəlif səpkili tədbirlər, konsertlər təşkil edilir, 270 yaşlı şəhərimizin tarixi-mədəni zənginlikləri, əsrarəngiz təbiəti tərənnüm olunur.

Aprelin 15-də Bülbülün Bakıdakı memorial muzeyində təşkil olunan konsert də "Şuşa İli"nin musiqili tədbirlərindən biri kimi yaddaşlara yazılıb. Konsert Azərbaycan Milli Konservatoriyası (AMK) tərkibində fəaliyyət göstərən İncəsənət Gimnaziyasının birgə təşkilatçılığı ilə gerçəkləşib.

Muzeyin direktoru Fərqanə Cabbarova qonaqları salamlayıb, müzəffər Azərbaycan Ordusunun şanlı Qələbəsindən, dövlət başçısının sərəncamı ilə 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsinin əhəmiyyətindən danışıb.

Sonra İncəsənət Gimnaziyası şagirdlərinin ifasında Azərbaycan bəstəkarlarının əsərləri səsləndirilib.

# Tarixi abidələr keçmişdən gələcəyə körpüdür

18 aprel dünyada Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (İCOMOS) təklifi üzrə 1983-cü ildə UNESCO tərəfindən təsis edilib. Bu münasibətlə bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində müxtəlif tədbirlər keçirilib.



Ağstafa Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Tovuzda yerləşən Göytəpə qədim yaşayış məskəninə ekskursiya təşkil edilib. İdarənin rəisi Nurəddin Mehdiyev çıxışında Göytəpə yaşayış yerinin tarixi əhəmiyyətindən danışıb. Qeyd edib ki, abidənin dəqiq tarixinin müəyyən olunması üçün üst qatdan götürülən kömür qalıqları üzərində Fransanın Milli Araşdırmalar Mərkəzində analiz aparılıb. Analizin nəticəsinə əsasən, Göytəpə yaşayış məskəninin bizim eradan əvvəl VI minilliyə aid olduğu müəyyən edilib. Bu onu deməyə əsas verir ki, ərazinin 8 min illik şəhər mədəniyyəti tarixi var.

Tovuz rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən "Tarixi abidələr keçmişdən gələcəyə körpüdür" adlı tədbirdə çıxış edənlər əlamətdar günün tarixi və məqsədi haqqında məlumat veriblər.

Qazax Dövlət Rəsm Qalereyasında "Abidələrimiz" başlığı altında rəsm sərgisi təşkil edilib. Sərgidə dərnəyin fəal üzvlərinin respublikamızın müxtəlif bölgələrindəki abidələri əks etdirən rəsmləri nümayiş olunub.

***

Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə və idarənin əməkdaşları tərəfindən Sabirabad rayon Qalaqayın kəndinin ərazisində yerləşən 1657-ci ildə tikilmiş tarixi abidə olan Qalaqayın kənd məscidi ziyarət edilib.

Mədəniyyət könüllülərinin iştirakı ilə Sabirabad şəhərində yerləşən XIX əsr abidəsi olan hamam binası ziyarət olunub. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Sabirabad rayonu üzrə əməkdaşı İntiqam Ağamalıyev tikilinin tarixi və özünəməxsus xüsusiyyətləri haqqında ətraflı məlumat verib.

***

Lənkəran RMİ Lerik rayon Heydər Əliyev Mərkəzi və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Şuşa abidələri" adlı tarix dərsi keçirilib. Dərsdə mədəniyyət paytaxtımız olan Şuşa və onun abidələri barədə ətraflı məlumat verilib.

***

İsmayıllı RMİ və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Qəbələ Regional İdarəsinin birgə təşkilatçılığı ilə Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunan tədbir keçirilib. İsmayıllı rayon Heydər Əliyev Mərkəzində gerçəkləşən tədbirdə idarənin rəisi Elçin Nəcəfov, Dövlət Xidməti Qəbələ Regional İdarəsinin rəisi Tərxan Tahirli və idarənin əməkdaşı Samir Zülfiyev çıxış ediblər.





***

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının Oxuculara xidmət şöbəsinin əməkdaşları və fəal oxucular tərəfindən Quba şəhərində yerləşən XIX əsrin memarlıq abidələri olan Cümə və Hacı Cəfər məscidlərinə və Hündür günbəzli hamama ekskursiya təşkil olunub.

***

Sumqayıt RMİ Sumqayıtın Tarixi Muzeyində əlamətdar günlə bağlı keçirilən tədbirdə muzeyin direktoru Aygün Zülfüqarlı çıxış edib.

***

Şəmkir RMİ Şəmkir rayon MKS-nin əməkdaşları rayonda yerləşən Alman Lüteran kilsəsi və Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiya ediblər.

***

Masallı RMİ Masallı rayon Mərkəzi Kitabxanasının əməkdaşları Masallı Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiya ediblər.

RMİ-nin əhatə etdiyi Yardımlı Tarix-Diyarşünaslıq Muzeyində keçirilən tədbirdə muzeyin əməkdaşı Anar Baloğlanlının "Abidələr tarixin yaddaşında" adlı məruzəsi dinlənilib. Muzeyin elmi işçisi Əlisəfa Əhmədov da öz çıxışında abidələrin qorunub saxlanılması qaydaları haqqında danışıb. Yardımlı rayon Mərkəzi Kitabxanasında "Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü" adlı sərgi təşkil edilib.



***

Biləsuvar RMİ Biləsuvar Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları tərəfindən N.Gəncəvi adına şəhər 1 saylı tam orta məktəbin bir qrup şagirdinə rayonda yerləşən Çöl Ağdam şəhərciyinə və memarlıq abidəsi olan Şəhriyar qalasına ekskursiya təşkil edilib.



***

Ağdaş RMİ Zərdab Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə rayonun Hüseynxanlı kənd ümumi orta məktəbində "Tariximizi tanıyaq və tanıdaq" adlı maarifləndirici tədbir təşkil olunub. Muzeyin direktoru Şahnaz Mustafayeva bu gün hər bir Azərbaycan vətəndaşının vəzifələrindən birinin də tarixi abidələri qorumaq və gənc nəsillərə təbliğ etmək olduğunu bildirib.

***

Xəbər verdiyimiz kimi, Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə Mədəniyyət Nazirliyi, "Bakı Abadlıq Xidməti" MMC və Azərbaycan Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Təmiz heykəl" adlı layihə həyata keçirilib. Gəncə RMİ-nin tabeliyindəki Mir Cəlal Paşayevin Ev-Muzeyinin kollektivi də bu layihəyə qoşulub. Gəncənin Nizami prospektində yerləşən bağda dahi şairin heykəli təmizlənib, ətrafı abadlaşdırılıb. Heykəlin qarşısına çiçəklər əkilib.

Gəncə şəhər MKS-nin 4 saylı kitabxana filialı "Gəncənin tarixi abidələri" başlıqlı sərgi təşkil edib.

***

Ağcabədi RMİ Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Şıxbabalı kənd klubunda keçirilən tədbirdə klubun müdiri İlhamiz Əliyev və digər qonaqlar çıxış ediblər.

# "İrəvan quberniyasının tarixi" kitabının təqdimatı keçirilib

Aprelin 18-də Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və "Gənc Musiqiçilərə Dəstək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə AMEA-nın Elm Tarixi İnstitutunun (ETİ) şöbə müdiri, dosent Ziyad Əmrahovun "İrəvan quberniyasının tarixi (1850-1917-ci illər)" kitabının təqdimatı keçirilib.




Kitabda Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq dövrün rusdilli mənbələri əsasında ermənilərin quberniya ilə bağlı iddialarının üzərindən xətt çəkilib, 1917-ci ilədək quberniyanın əsas şəhər və qəzalarında bölgənin köklü sakinləri olan Azərbaycan türklərinin hakim etnos olduğu sübuta yetirilib.

Təqdimat mərasimində tanınmış elm xadimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan kitabxananın direktoru Aslan Cəfərov "İrəvan quberniyasının tarixi (1850-1917-ci illər)" kitabının ərazilərimizin coğrafi mövqeyi mövzusunda yazılan dəyərli monoqrafiya olduğunu, ciddi bir əməyin, gərgin elmi tədqiqatların sayəsində ərsəyə gəldiyini qeyd edib.

Tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi çıxışında İrəvan quberniyasının ümumi çəkişmələr fonunda uzun illər ərzində mübahisəli ərazi olmasından söz açaraq, bu mövzunun belə dəqiqliklə, hərtərəfli tədqiq edilməsinə ehtiyacın olduğunu bildirib.

BDU-nun dosenti, kitabın rəyçisi Sevinc Qasımova Osmanlı arxivində olan sənədlər əsasında yazılan monoqrafiyanı tarixşünaslıq elmi üçün dəyərli əsər adlandırıb.

Tarix üzrə fəlsəfə doktorları Tahir Şahbazov, Fərhad Cabbarov, AMEA ETİ-nin şöbə müdiri Elvin Talışinski kitabda vaxtilə İrəvan quberniyasının idarə və müəssisələrində, şəhər dumalarında, məhkəmə orqanlarında çalışmış, qəza, şəhər, ibtidai məktəblərində, progimnaziya və gimnaziyalarında, İrəvan Müəllimlər Seminariyasında təhsil almış və işləmiş soydaşlarımız, eləcə də quberniyanın tarixi-memarlıq abidələri, iqtisadi həyatı haqqında məlumatların yer aldığını və bütün bunların kitabın tarixi əhəmiyyətini artırdığını vurğulayıblar.

Tədbirdə iştirakçıları kitabın xarici dillərə tərcümə olunması və daha geniş oxucu kütləsi arasında təbliğ olunmasının zəruriliyini qeyd ediblər.

Ziyad Əmrahov "İrəvan quberniyasının tarixi (1850-1917-ci illər)" kitabını üç il ərzində yazıb ərsəyə gətirməsi haqqında danışıb, tezliklə kitabın ikinci hissəsi üzərində işlərə başlayacağını deyib.

Sonda müəllif tədbirin təşkili üçün kitabxanaya təşəkkürünü bildirib və kitabın bir neçə nüsxəsini kitabxanaya hədiyyə edib.

# "Keşikçidağ" qoruğu elmi seminar təşkil edib

"Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu tərəfindən Ağstafa rayon Heydər Əliyev Mərkəzində alimlərin və digər qonaqların iştirakı ilə elmi seminar keçirilib.

Qoruğun direktoru Musa Mursaquliyev Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün əhəmiyyətindən bəhs edib.

Qoruq ərazisində uzun müddət elmi tədqiqat işləri aparmış Bakı Dövlət Universitetinin (BDU) dosenti, sənətşünaslıq üzrə elmlər doktoru İmaş Hacıyev divar boyakarlığının nümunəsi olan freskaların tədqiqi və qorunmasından danışıb.

BDU-nun professorları Hüseyn Xəlilov və Valeh Nəsibov da Ağstafa ərazisindəki memarlıq, dini, tarixi abidələrdən söz açıblar.

Əməkdar müəllim İndira Səmədova, Ağstafa Dövlət Rəsm Qalereyasının direktoru Gülgün Kərimov və başqaları çıxış edərək abidələr haqqında məlumatların gənc nəslə çatdırılması, qorunması sahəsində görülən işlərdən danışıblar.

# Bəşəriyyəti incəsənətsiz təsəvvür etmək çətindir

Bölgələrdə 15 aprel – Dünya İncəsənət Günü ilə əlaqədar bir sıra tədbirlər təşkil olunub.

Ağcabədi RMİ Ağcabədi rayon MKS-nin Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə keçirilən tədbirdə ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə mədəniyyət və incəsənətimizin inkişafına göstərdiyi diqqət və qayğıdan bəhs olunub.

***



Bərdə RMİ Yevlax şəhər Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Aran - 2 qəsəbə Mədəniyyət evində keçirilən tədbirdə dərnək üzvlərinin ifasında şeir nümunələri səsləndirilib, Aran qəsəbə Uşaq musiqi məktəbi şagirdlərinin və müəllimlərinin ifasında rəngarəng musiqi nömrələri təqdim olunub.

Yevlax şəhər 1 nömrəli Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə keçirilən tədbirdə isə məktəbin "Kür" estrada qrupu (bədii rəhbər – Əməkdar mədəniyyət işçisi İlqar Əhmədov) rəngarəng konsert proqramı ilə çıxış edib.

***

Masallı RMİ N.Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində Dünya İncəsənət Günü münasibətilə konsert keçirilib. RMİ-nin rəisi Bəxtiyar Qılıncovun təbrik nitqindən sonra Mədəniyyət Mərkəzinin solistləri maraqlı musiqi proqramı təqdim ediblər.

***



Sabirabad RMİ Saatlı rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə idarənin rəisi Fərid Qurbanzadə çıxış edərək Dünya İncəsənət Gününün tarixi və əhəmiyyəti barədə söz açıb. Tədbirdə təqdim olunan konsert proqramı, folklor kollektivlərinin rəqs nömrələri tamaşaçıların marağına səbəb olub.

***

İsmayıllı RMİ-nin təşkilatçılığı ilə şəhərin mərkəzi meydanında, açıq havada təşkil olunan tədbirdə əl işlərindən ibarət sərgiyə baxış olub. Sonra konsert proqramı təqdim edilib. "Niyal" instrumental ansamblının solistləri, İsmayıllı rayon F.Əzimov adına Uşaq incəsənət məktəbinin "Çingiz" ritm və xoreoqrafiya qrupu, kənd filiallarının uşaq kollektivlərinin çıxışları alqışlarla qarşılanıb.

***

Ağstafa RMİ-nin təşəbbüsü və təşkilatçılığı ilə idarənin əhatə etdiyi Ağstafa, Qazax və Tovuz rayonlarında Dünya İncəsənət Günü geniş şəkildə qeyd olunub. MKS, qalereya və muzeylərdə sərgilər təşkil edilib, mədəniyyət mərkəzi və uşaq musiqi məktəblərinin kollektivləri konsert proqramı ilə sakinlərə xoş anlar yaşadıblar.

***



Şəki RMİ-nin təşkilatçılığı ilə "Şəki incəsənətin beşiyidir" adlı tədbir keçirilib. RMİ-nin rəisi səlahiyyətlərini icra edən Tərlan Nəsibov çıxışında Şəkinin tarixinin bütün dövrlərində elm, maarif, mədəniyyət, sənət məbədgahı olduğunu qeyd edib.

Balakən rayon Mədəniyyət Mərkəzində "Hər bir xalq öz mədəniyyəti ilə tanınır" başlığı altında tədbir keçirilib.

**Hazırladı: N.Məmmədli**

# Füzuli teatrında beşgünlük dərs

Bölgə teatrlarının truppaları ilə bağlı müzakirələrdə ümdə məqamlardan biri kimi aktyorların peşə vərdişləri, xüsusən plastika və jest dili ilə bağlı ifadə məsələləri də ön planа çəkilir. Peşəkar aktyorluq dərsləri alanlar bu kimi bilgiləri tədris prosesində əldə edə bilirlər. Amma bölgə teatrlarının aktyor heyətinin həm də həvəskarlardan seçildiyini nəzərə alsaq, bu yöndə ustad dərslərinə xüsusilə ehtiyac olduğunu deyə bilərik.

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin "Öyrədərək öyrənirəm" layihəsi üzrə növbəti ustad dərsləri aprelin 14-dən 18-dək Füzuli Dövlət Dram Teatrında (Horadiz şəhəri) təşkil edilib. Ustad dərslərini Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktyoru, Xalq artisti Pərviz Məmmədrzayev keçib.

Hər iki tərəfi – dərs verən ilə dərs alanları məmnun edən beş günün təəssüratını ilk olaraq Pərviz Məmmədrzayevdən öyrəndik.

Xalq artisti kollektivlə ünsiyyətdən razılıqla söz açdı: "Bura gəldiyimə, sənətə sevgi dolu insanları tanıdığıma görə çox məmnunam. Aktyorların böyük həvəslə işə girişdiklərini gördüm. Təəssüflər olsun ki, bəzi başqa yerlərdə "Mən artıq hər şeyi bilirəm" deyənlər çoxdur və belə təəssüfləndirici halların bu kollektivdən uzaq olması məni xeyli xoşhal etdi. Tələbələrimiz çox məhsuldar və maraqlı oldu. Daha çox aktyorun tərəf-müqabili ilə improvizasiyasının ön planda olduğu dərslərdə hərəkətin xarakterinin və mənasının zaman və məkan aspektindən açılması, bədənin ifadə vasitələrinin inkişafı, hərəkət və sözlə bağlı improvizasiya kimi məqamlara diqqət ayırdıq. Ümumilikdə aktyorun improvizasiya imkanlarının artırılması, onun səhnədə özünü, tamaşaçını, məkanı hiss etməsi barədə müxtəlif çalışmalar etdik. Aktyorun oynayacağı obraz barədə gərginlik keçirmədən real şəkildə hər şeyi qiymətləndirmək, tərəf-müqabili görüb dərk etmək, interaktiv olmaqla bağlı öyrənib bildirkilərimi tətbiq etməyə çalışdım...".

Aktyorun texnikası haqqında ilkin və ən vacib metodların öyrədildiyi dərslər öyrənən qismi də qane edib.




Füzuli Dövlət Dram Teatrının quruluşçu rejissoru Nicat Mirzəzadə belə layihələrin qısa zamanda yaxşı nəticə verəcəyini düşünür: "Mədəniyyət Nazirliyi çox əhəmiyyətli bir layihəyə start verib. Fikrimcə, "Öyrədərək öyrənirəm" layihəsinin əsas özəlliyi bölgələrdə yerləşən teatrları da əhatə etməsidir. Bölgə teatrlarında peşəkar aktyor və rejissorların ustad dərsləri çox vacibdir. Xalq artisti Pərviz Məmmədrzayevin bir dərs günü aktyorlarımız üçün teatr hadisəsi idi. Böyük həvəslə öyrənir və icra edirdilər. Mədəniyyət Nazirliyinə, Pərviz müəllimə, bu layihə ilə bağlı əməyi keçən hər kəsə təşəkkür edirəm".

Orxan Təvəkküllü (aktyor): "Belə dərsləri çoxdan arzulayırdıq. Ümumiyyətlə, son zamanlar teatrlara göstərilən diqqət təqdirəlayiqdir. Bu canlanma bölgədə yerləşən teatrlara da təsirsiz ötüşmür. Şəxsən mən bu ustad dərslərini çox dəyərli və faydalı hesab edirəm. Dərslər zamanı özümü aktyor kimi daha çox kəşf etdim...".

Xurşud Babayeva (aktrisa): "Gənc aktrisa olaraq bu ustad dərslərindən gələcək səhnə fəaliyyətim üçün faydalandım. Bu kimi layihələr bölgə teatrları, eləcə də gənc sənətçilər üçün zəruridir. Aktyor sənətinin ən spesifik cəhətlərindən ən xırda detallarına qədər öyrənirik. Davamlı olmasını, başqa istiqamətlər üzrə də təşkilini istəyirik...".

**Həmidə**

# Fikrət Əmirovun 100 illiyi münasibətilə Gəncədə ədəbi-bədii gecə keçirilib

Bu il dünya şöhrətli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, dövlət mükafatları laureatı Fikrət Əmirovun (1922-1984) 100 illik yubileyi qeyd olunur. İl ərzində dahi bəstəkarın doğulduğu Gəncə şəhəri də rəngarəng tədbirlərə ev sahibliyi edəcək.

Aprelin 16-da Mədəniyyət Nazirliyinin dəstəyi, Gəncə Regional Mədəniyyət İdarəsinin (RMİ) təşəbbüsü və "İrsimizin Tədqiqi və Təbliği" İctimai Birliyinin təşkilatçılığı ilə F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında əlamətdar yubileylə əlaqədar ədəbi-bədii gecə keçirilib.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin üzvləri Pərvin Kərimzadə, Müşfiq Cəfərov, Mədəniyyət Nazirliyi Musiqi sektorunun müdiri Vüqar Hümbətov, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, Türkiyənin Gəncədəki baş konsulu Zəki Öztürk, bir sıra müəssisə və təşkilatların rəhbərləri, mədəniyyət və incəsənət xadimləri, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əvvəl iştirakçılar ümummilli lider Heydər Əliyevin şəhərin baş meydanında yerləşən abidəsini ziyarət edərək önünə tər çiçəklər düzüblər. Gəncənin Şəhidlər xiyabanı və Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin şəhəri raket atəşinə tutması nəticəsində dağılan ərazi də ziyarət edilib.

Sonra görkəmli bəstəkarın 100 illiyinə həsr olunmuş ədəbi-bədii gecə filarmoniyada davam edib.

Gəncə şəhər 4 nömrəli Uşaq musiqi məktəbinin direktoru Aynur Şixiyeva ədəbi-bədii yubiley gecəsinin iştirakçılarını salamlayaraq sözü musiqişünas, Əməkdar mədəniyyət işçisi, "İrsimizin Tədqiqi və Təbliği" İctimai Birliyinin sədri Səadət Təhmirazqızına verib. O, Fikrət Əmirovun zəngin musiqi irsindən söhbət açıb.

Gəncə RMİ-nin rəisi Vasif Cənnətov çıxış edərək Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Nizami yurdu Gəncəyə olan xüsusi diqqət və qayğısından danışıb və dövlət başçısının Fikrət Əmirovun 100 illik yubileyinin keçirilməsi barədə sərəncamının əhəmiyyətini diqqətə çatdırıb.

Tədbirdə həmçinin Türkiyənin Gəncədəki baş konsulu Zəki Öztürk, AMEA Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev, millət vəkili Pərvin Kərimzadə, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli, Milli Konservatoriyanın rektoru, Xalq artisti Siyavuş Kərimi, konservatoriyanın elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynova, "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının rəhbəri Sahil Quliyev və başqaları çıxış edərək dahi musiqiçinin zəngin sənət mirasından danışıblar.



Gecədə Gəncə filarmoniyasının "Göygöl" ansamblı və Gəncə Dövlət Kamera Orkestrinin müşayiəti ilə Fikrət Əmirovun musiqiləri təqdim olunub. Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktoru, Xalq artisti Murad Adıgözəlzadə bəstəkarın forte-piano miniatürlərini ifa edib. Həmçinin Əməkdar artistlər Təhmiraz Şirinov, Babək Niftəliyev, Zemfira İsmayılova, Kəmalə Tağızadə, Xalq artisti Sevinc İbrahimova, vokalçı Elmir Pişnamazzadə, Əməkdar müəllim Naibə Şahməmmədova çıxış etdilər. Bütün ifalar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

# "Xəzinə" tapılıbsa, deməli...



Nazik, şəffaf parçadan biçilmiş beş pərdə. Onların arxasında yanan xəfif işıqlar, pərdə önünə çıxmadan çox iri görünən kölgələr, pərdələrin məcazi tavana birləşdiyi yerdə yazılmış hikmətli kəlamlar elə ilk dəqiqələrdən tamaşaçını sözə ehya verildiyi məkanda olduğuna hazırlayır. Kölgə dediyimiz, əslində, göstərinin iç qatını, səhnədəki oyunu ikinci plan kimi tamamlayan aktyorların hərəkəti, plastikası bu tamaşada dilin söylədiyi ilə vücudun bəhs etdikləri arasında vəhdətin olacağına inandırır. Çox məşhur musiqi əsərlərindən kompelyasiya edilmiş uğurlu musiqi tərtibatı bu canlı sənət ünsiyyətinə seyrçidən ciddi münasibət istəyir...

Oxucuları bu qədər intizarda qoymaq yetər yəqin. Söhbət Sumqayıt Dövlət Dram Teatrının 54-cü teatr mövsümünü yeni bir əsərlə – "Xəzinə" adlı ikihissəli epik pritça ilə açmasından gedir. 9-10 aprel tarixlərində ardıcıl premyerası baş tutan tamaşa Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanıb və Nizami Gəncəvinin ötən il qeyd etdiyimiz 880 illiyinə həsr olunub. "Xəmsə"nin (şəffaf pərdələrin imitasiya etdiyi qapıların sayı niyə məhz beş imiş?) motivləri əsasında yazılmış əsərin müəllifi yazıçı-ssenarist Hafiz Ataxanlıdır.

Tamaşanın ilk dəqiqələrindən anlaşılır ki, quruluşçu rejissor və "Xəzinə"nin səhnə redaksiyasının müəllifi Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Elşən Sərxanoğlu, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Orucov, rəqslərin quruluşçusu (əslində rəqs quruluşundan daha çox səhnə plastikasının həllini vermiş) Vüsal Mehrəliyev tamaşanın vahid, bir-birini tamamlayan səhnə həllini tapa bilmişlər. Bu yaradıcı anlaşma həm bir neçə rolda səhnəyə çıxan aktyorların işini asanlaşdırıb, həm də əsərin bitkin tamaşa kimi qavranılmasını təmin edib.

Adətən belə tamlıqla işlənmiş tamaşalarda hansısa aktyoru xüsusi vurğulamaq çətin olur. Əməkdar artist Cəlal Məmmədov, aktyorlar Oktay Mehdiyev, Şəmistan Süleymanlı, Ümid Abbaszadə və Kamran Muradlı bir neçə rolda səhnəyə çıxsalar da, onların hansı obrazda – tamaşanın ideyasını çatdıran mürid, yaxud konkret "Xəmsə" qəhrəmanı kimi daha yaddaqalan olduğunu demək də çətindir. Təbii ki, tamaşanın favoritləri var idi. Cəlal Məmmədovun, Oktay Mehdiyev və Şəmistan Süleymanlının müridlərlə yanaşı, müvafiq olaraq İskəndər, Dəllək, Şər, Şuriyyə rollarında səhnəyə çıxışı tamaşaçılardan daha çox alqış payı qazandı (görünür, son zamanlar teleseriallarda rol almaları onların teatr aktyoru kimi haqq etdikləri populyarlığa da təsirsiz qalmayıb).

İnsan zəkasını hər anlamdan üstün tutan, öz "Xəmsə"sində bunu bəyan edən Nizami Gəncəvi (Əməkdar artist Rauf Ağakişiyev) tamaşada çox az görünür. Bir obraz kimi o qədər də dramaturji yükü olmayan, yalnız öz hikmət xəzinəsindən söz ərməğan edən Şeyx Nizaminin səsi də fonoqramla verilir. Quruluşçu rejissor bu üsulla tamaşanın ismarışını tamamlayır: Nizaminin səsi ön məqamda qeybdən gəlmək, əbədilik qulağımızda qalmaq effekti yaradır: altşüur isə onu – dünya ədəbiyyatına, fəlsəfəsinə kəlam xəzinəsi bəxş etmiş, ruhu, düşüncəsi həyatın maddi olaraq qavrayışından çox yüksəklərdə dolaşan müdrik şəxsiyyət, öz ədəbi irsi ilə əbədi müəllim məqamında qəbul edir.

Tamaşanın aktyor heyətinə gəlincə, "Xəzinə"də teatrın kifayət qədər səhnə təcrübəsinə malik orta və gənc nəsil aktyorları çıxış edirdilər. Yuxarıda adlarını çəkdiyimiz sənətçilərdən başqa aktrisa Vəfa Qurbanova öz Nüşabəsini böyük İskəndərin hüzurunda mövqeyindən dönməsə də, cəsarətini cilovlamağa çalışan, lakin hansısa kiçik anlaşılmazlığın cahan fatehinin qəzəbinə səbəb ola biləcəyi hürküsünü də səsinin tonu ilə büruzə verən kiçik hökmdar kimi təqdim etdi.

Harun ər-Rəşid rolunda çıxış edən Akif Mirzəyev və Vəzir – Yalçın Səlimov dueti də əhvalatın üst qatındakı satiranı çatdıra bildi. Onların düşdüyü situasiyaya gülən tamaşaçı özü də bilmədən adi Dəlləyin padşah iltifatından ürəklənərək bitməyəcək xəyallar qurmasına güldü.

Nə gizlədək, bizim tamaşaçı kontingentimizin böyük hissəsi faciənin qabardılmasını seyr etməyi xoşlayır. O üzdən gənc aktyorlar Ümid Abbaszadənin (o həm də tamaşanın rejissorudur) Məcnunu və Aynur Hümmətovanın Leylisi insan həyatının faciəsi kimi qəbul edildi. Hər halda rejissorlar bu iki gənc aktyorun həm zahirən, həm də daxili enerji baxımından bir-birini tamamlamasını nəzərə alaraq məhz onlar üçün tamaşa qura bilərlər.

Bəzən teatral mühitdə, səhnəarxası söhbətlərdə teatra bir köynək yaxın olanlar deyirlər ki, bizim tamaşaçı daha sözə fikir vermir, ona hərəkətli, məzəli oyun gərəkdir ki, hövsələsini basıb tamaşanı sonadək izləsin. Amma "Xəzinə"nin nümayişi göstərdi ki, sözün, bütünlükdə mətnin seçimi elə olmalıdır ki, tamaşaçı vaxtın necə keçdiyini hiss etməsin. Bir növ lap "Bəyin oğurlanması" filmində kino barədə Əhməd dayının söylədiyinə oxşadı. Yəni, elə çəkin ki, baxsınlar...

Yeri gəlmişkən, bizim tamaşaçının müxtəlif teatr elementlərinə, oyun və göstəri texnikasında yeniliklərə açıq olmamaqda da qınayırlar. Amma "Xəzinə"də İndoneziya kölgə teatrının elementlərindən də istifadə olunmuşdu. Tamaşanı seyr etdikcə salonun müridlərin geyimindəki sadəliyi, səhnə quruluşundakı lakoniklik və yığcamlığı çox rahat "həzm etdiyinə" şahid olduq. Deməli, qızıl ortanı tapmaq gərəkdir ki...

"Xəzinə" səhnədədir. Ümidvarıq ki, tamaşa teatrın repertuarında möhkəmlənəcək. Hər necə olsa, sözdür bizim ən böyük söz "Xəzinə"mizdən gedir.

**Gülcahan Mirməmməd**

# Dərbənddə bir Azərbaycan teatrı var...

## Sərvər Əliyev: "Bu gün teatrın mühüm problemi azərbaycandilli gənc aktyor nəsli məsələsidir"

Milli teatrımızın tarixində Dərbənd teatrının da özünəməxsus yeri var. Dərbənd Azərbaycan Dövlət Dram Teatrının bu günü – uğurlarından qayğılarına hər bir cari məsələsi, təbii ki, bizim üçün də maraqlıdır.

Bütün dünyada hökm sürən pandemiyanın doğurduğu uzun fasilədən sonra bu sənət ocağının da premyera sorağı gəldi. Aprelin 13-də Dərbənd Azərbaycan Dövlət Dram Teatrında yazıçı-dramaturq, publisist, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəylinin "İmperator" pyesinin ilk tamaşası oldu.

Teatrın baş rejissoru, Əməkdar artist Sərvər Əliyev yeni tamaşa və ümumən sənət ocağındakı yeniliklərlə bağlı fikirlərini qəzetimizlə bölüşdü: "Elçin Hüseynbəylinin əsərinə gənc rejissor Hörmət Aslanov quruluş verib. Hazırda o, Mahaçqalada, Dağıstan Dövlət Universitetinin Mədəniyyət fakültəsində rejissorluq üzrə təhsil alır. Bu, rejissor kimi ilk işi idi və maraqlı tamaşa ərsəyə gətirib.

Əslində, tamaşanı ötən il, müəllifin 60 illiyi üçün hazırlamalı idik. Amma işlərin çoxluğundan bu vaxta qaldı. İşlərin çoxluğu, plan və ondan kənar tamaşalar, qastrollar, festivallarda iştirak sayəsində əminliklə demək olar ki, Dərbənd teatrı özünün yeni inkişaf dövrünü yaşayır. Biz indiyədək dəfələrlə Türkiyədə, Gürcüstanda, Rusiya Federasiyasının müxtəlif şəhərlərində festivallarda uğurla təmsil olunaraq mükafatlar qazanmışıq. Yaradıcılıq əlaqələrimizi daha da genişləndirmək əzmindəyik. Repertuarın janr və mövzu müxtəlifliyini daim diqqətdə saxlayırıq. Ötən il Nizami Gəncəvinin 880 illiyi münasibətilə İftixar Piriyevin "Xəmsə, yaxud könüllər sultanı" əsərini tamaşaya qoyduq. Ə.Haqverdiyevin "Dağılan tifaq" əsərinin tamaşası ilə Rusiya və Türkiyənin müxtəlif şəhərlərində festival və qastrollarda olduq. İftixarın "Eşqin tikan dairəsi" əsəri əsasında İrəvan Azərbaycan Dövlət Dram Teatrında da bir neçə aktyorun iştirakı ilə maraqlı tamaşa hazırlandı. Bu tamaşa ilə Türkiyədə - Balıkesirdə festivalda olduq və birinci dərəcəli diploma layiq görüldük. Oradan Özbəkistan və Türkiyədə keçiriləcək iki festivala dəvət də aldıq...".



Baş rejissor yaradıcı mübadilə məsələlərinə də toxundu: "Rusiyanın müxtəlif şəhərlərindən, eləcə də Azərbaycan və başqa qonşu ölkələrdən dəvətli rejissorlarla işə də böyük maraq göstəririk. Hazırda türkiyəli rejissor bizim səhnədə Molyerin "Xəsis"inə quruluş verir. Murad Kajlayevin "Validə"sini isə Bakıdan dəvət etdiyimiz Əməkdar incəsənət xadimi, Akademik Opera və Balet Teatrının baş rejissoru Hafiz Quliyev səhnə yozumu verəcək. Yeni mövsümdə Firuz Mustafanın "Ağıllı adam" pyesini hazırlayacağam.

Hələ 2019-cu ildə Dağıstan Mədəniyyət Nazirliyi bizdən üçillik repertuar planı istəyərkən biz mövzu, yeni əsər və onların quruluşçularını diqqətlə seçib təqdim etmişdik. Maraqlı planlarımız da var idi. Təəssüf ki, onların bəzilərini pandemiya ilə bağlı sərhədlərin bağlı olması səbəbindən reallaşdıra bilmədik. Faşizm üzərində Qələbənin 75 illiyi münasibətilə qəhrəmanlığı dillər əzbəri olan həmyerlimiz, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə haqqında yazdığım pyesə Kabardinyada həmkarımız, istedadlı rejissor Məhəmməd Atımrzayev quruluş verdi... ".

Dərbənd teatrı ilə əməkdaşlığa hələ 2017-ci ildən başlayan və bu günədək səkkiz tamaşaya quruluş verən rejissor bir sıra problemli məsələlərə də diqqət çəkdi: "Bildiyiniz kimi, mən həm də İrəvan Dövlət Azərbaycan Dram Teatrının baş rejissoruyam. Dağıstan Mədəniyyət Nazirliyinin Azərbaycan Mədəniyyət Nazirliyinə müraciətindən sonra bu sənət ocağının da yaradıcılıq məsələləri mənə həvalə olunub. Bu teatr mənim üçün çox əzizdir. Dərbənd teatrının gələcəyi ilə bağlı müəyyən narahatlığım da var. Birincisi, azərbaycandilli gənc aktyor nəsli məsələsidir.

Heç kimə sirr deyil ki, Dərbənd, eləcə də Tiflis teatrında da gənc aktyor potensialı ilə bağlı ciddi problemlər var. Düzdür, bizim kollektivdə ömrünü bu teatra həsr etmiş istedadlı aktyorlar, rejissor, rəssam var. Amma ümumi dərdimiz eynidir – gənclər. Son illər Dərbənd teatrına Azərbaycandan gənc aktyor, rejissor getməyib. Nəticə olaraq ana dilində səlis danışan kadrlarımızın da sayı kəskin azalıb. Doğrudur, aktyor truppamız əsas etibarilə Dərbənddəki azərbaycanlılardan təşkil olunub. Amma məsələ burasındadır ki, onlar təhsillərini rus dilində alıblar. Belə olduqda nəinki dil, hətta Azərbaycan ədəbiyyatı, dramaturgiyası ilə bağlı məlumat böhranı da yaşayırıq. İnanın, əksər hallarda biz tamaşa qoyarkən quruluş, mizandan çox dil faktoru, sözlərin düzgün ifadəsi, tələffüzü üzərində baş yoruruq. Doğrudur, aktyor potensialları, təhsil səviyyələri, texnika və bacarıqları ürəkaçandır. Amma dil baxımından çətinlik çəkirlər".

Sərvər Əliyev bu məsələ ilə bağlı Azərbaycan Mədəniyyət Nazirliyinə də müraciət etdiklərini deyir. Amma teatrımıza Azərbaycandan gənclərin, xüsusən aktyorların cəlbi üçün səylərimiz hələ nəticə verməyib. Əslində, Dağıstanda tabe olduğumuz nazirlik, teatrımızın rəhbərliyi – direktorumuz, Dağıstanın Əməkdar mədəniyyət işçisi Firdovsi Əsgərov onlara mümkün bütün şəraiti vəd edir, imtiyazlar yaradır, o cümlədən mənzil təminatı ilə bağlı. Amma görünür, bu, azdır. Düşünürəm ki, hər iki nazirlik stimul verici başqa addımlar da ata bilər...".

Hazırda teatrın binasının tikintisinin davam etdiyini və 2023-cü ildə təhvil veriləcəyini də deyən baş rejissor tamaşaçı marağından da danışdı: "Tikinti ilə əlaqədar olaraq tamaşalarımızı ayda iki dəfə Dərbənddəki Ləzgi Dövlət Dram Teatrının səhnəsində nümayiş etdiririk. Teatrsevərlər, sadiq tamaşaçılarımız bizi böyük maraqla izləyir və sevgi ilə alqışlayırlar. Teatra maraq, təhsil var. Bunu hiss etmək bizi də həvəsləndirir".

**Həmidə Nizamiqızı**

# "Qarabağ Azərbaycandır!" adlı konsert proqramı

Aprelin 16-da Beynəlxalq Muğam Mərkəzində (BMM) "Qarabağ Azərbaycandır!" adlı konsert proqramı təqdim olundu. BMM-in dəstəyi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Xan Şuşinski Fondunun təşkilatçılığı ilə keçirilən musiqi axşamında diplomatik korpusun nümayəndələri, rəsmilər, ictimai xadimlər iştirak edirdi.




Əvvəlcə mərkəzin foyesində tanınmış modelyer, Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfovanın "Xarıbülbül" kolleksiyasının təqdimatı oldu. Qarabağa məxsus milli geyimlərin fonunda Bakı Xoreoqrafiya Akademiyasının rəqqasları "Cəngi", "Uzundərə" və "Yallı" rəqslərini ifa etdilər.

Zalda görkəmli xanəndə, Xalq artisti Xan Şuşinskinin "Şuşanın dağları" mahnısının sədaları ilə başlanan konsertdə Vətən müharibəsində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə əzəli torpağımız Qarabağın işğaldan azad edilməsinin tarixi əhəmiyyəti vurğulandı. Qeyd olundu ki, Prezident İlham Əliyev 2022-ci ili "Şuşa İli" elan edib. Bu il həm də mədəniyyət paytaxtımızın 270 yaşı qeyd olunur.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva Vətən müharibəsindəki milli birliyimizdən, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ordumuzun tarixi Qələbəsindən söz açdı.

Sonra Xan Şuşinski Fondunun 10 illik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirildi.

Konsertdə BMM-in solistlərinin ifasında muğamlar, vokal musiqiləri, aşıq havaları və klassik əsərlər səsləndi. Xalq artistləri Nurəddin Mehdixanlı (şeir qiraəti) və Ənvər Sadıqovun "Qaytağı" ansamblının vətənpərvərlik ruhlu çıxışları "Qarabağ Azərbaycandır" nidasını sənətin səsi ilə rövnəqləndirdi.

Gecə "Qarabağ yallısı"nın sədaları ilə yekunlaşdı.

**Lalə**

Aida Abdullayeva – 100

# Arfa ifaçılığı məktəbimizin yaradıcısı

Azərbaycanın musiqi mədəniyyətində novatorluğu ilə tanınan sənətkarlarımızdan biri də arfa ifaçısı, pedaqoq, Əməkdar artist, professor Aida Abdullayeva olub. O, ömrünü professional arfa sənətinin inkişafına həsr edib. Sənətkarı anadan olmasının 100 illiyi ilə bağlı yada saldıq.



Aida Həmdulla qızı Abdullayeva 13 aprel 1922-ci ildə Bakıda anadan olub. Musiqiçi haqqında araşdırmalarda qeyd edilir ki, ailənin beşinci övladı olan qıza C.Verdinin "Aida" operasının tamaşasından qayıdan dayısı baş qəhrəmanın adını verməyi təklif edib... Onun uşaqlıq və gənclik illəri çətin dövrə təsadüf edir. 30-cu illər repressiyasında atası güllələnir. Bundan sonra ailəyə qarşı haqsız təqib və təhdidlər başlayır. Aida 13 yaşında fəhlə kurslarına yazılır. Eyni zamanda musiqi ilə də maraqlanır. Arfa müəllimi Yelizaveta Borisovna Şlezigerlə tanış olur. Y.Şleziger onun musiqi duyumunu yoxlayır və beləliklə, Aida arfa sinfində təhsil almağa başlayır.

Aida Abdullayeva 1938-ci ildə şagird musiqiçi kimi ilk konsert tədbirinə qatılır. Maraqlı ifası ilə konsertdə iştirak edən Üzeyir Hacıbəylinin diqqətini çəkir. Gənc musiqiçi 1940-cı ildə orta məktəbi bitirir. Azərbaycan Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsi tərəfindən ali musiqi təhsili almaq üçün Moskva Dövlət Konservatoriyasına göndərilir. Ancaq 1941-ci ilin yayında II Dünya müharibəsinin başlanması ilə SSRİ-də vəziyyət dəyişir. Aida Abdullayeva Bakıya qayıdır və Opera və Balet Teatrının orkestrində işə qəbul olunur. Bütün bunlara baxmayaraq, dövrün qara kölgələri, dəhşətli repressiya dalğası bu ailəni rahat buraxmır. Musiqiçi 1942-ci ilin payızında ailəsi ilə birlikdə Qazaxıstana sürgün edilir. Bu haqsızlıqla barışmayan Üzeyir bəy 1943-cü ildə ailə haqqında vəsatət verir. Bundan sonra onlar Azərbaycana qaytarılır. A.Abdullayeva Azərbaycan Dövlət Konservatoriyasına bərpa olunur, eyni zamanda Radiokomitənin simfonik orkestrində işə götürülür.

A.Abdullayeva 1944-cü ildə yenidən Rusiyaya göndərilir. Moskva Dövlət Konservatoriyasında professor K.Erdelinin sinfində təhsil alır. 1949-cu ildə bu təhsil ocağını müvəffəqiyyətlə başa vurduqdan sonra vətənə dönən musiqiçi konservatoriyada arfa sinfinə rəhbərlik etməyə başlayır. Geniş pedaqoji və ifaçılıq fəaliyyəti ilə musiqidə yeni səhifə açan A.Abdullayeva arfa ixtisası üzrə təhsilin bütün mərhələləri üçün proqram və dərsliklər üzərində işləyir. Azərbaycan bəstəkarlarının əsərlərinin bu musiqi aləti üçün köçürmə və transkripsiyalarını yaradır. Azərbaycan arfa ifaçılığı məktəbinin yaradıcısı kimi tanınan musiqiçi 1969-cu ildə A.Zeynallı adına musiqi məktəbində, 1978-ci ildə isə S.Hacıbəyov adına Sumqayıt musiqi məktəbində arfa siniflərinin açılmasına nail olur. 1983-1985-ci illərdə "Arfa üçün uşaq pyesləri" və "Azərbaycan bəstəkarlarının arfa üçün pyesləri" toplularını nəşr etdirir. 1977-ci ildə dosent, 1985-ci ildə professor adları alır. Görkəmli musiqiçi dolğun pedaqoji fəaliyyəti dövründə onlarca arfa ifaçısı yetişdirir.

A.Abdullayevanın Bakıda ilk konserti 1950-ci ildə keçirilir. 1969-cu ilədək Azərbaycan Dövlət Filarmoniyasının simfonik orkestrində çalışan fədakar musiqiçinin əməyi hökumət tərəfindən yüksək qiymətləndirilir. 1972-ci ildə "Əməkdar artist" fəxri adına layiq görülür.

Gözəl arfa ifası ilə yanaşı, pedaqoq və musiqi təşkilatçısı kimi yaddaşlarda iz qoyan Aida Abdullayeva 11 iyun 2009-cu ildə Bakıda vəfat edib.

**S.Fərəcov**

# Milli kinomuzda öz dəst-xətti olan rejissor

## Dövlət Film Fondunda Xalq artisti Eldar Quliyevin xatirəsi anıldı

*əvvəli səh. 1-də*

Cəmil Quliyev bildirdi ki, tamaşaçılar Eldar Quliyevin filmlərini sevir və dəfələrlə izləyiblər: "Bu gün isə onun iki qısametrajlı filmi nümayiş olunacaq. Həmin filmlərdən biri – "Gözləmə saatı" Eldar Quliyevin Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda oxuyarkən kurs işi olub. Filmin lenti bizə Moskvadakı şəxsi arxivdən gəlib. Təqdim edəcəyimiz ikinci ekran əsərini – "Biri vardı, biri yoxdu..." filmini rejissor 1967-ci ildə çəkib. Ekran əsəri Dövlət Film Fondunda elektron formata salınıb...".

Xalq artistləri – rejissorlar Azər Paşa Nemətov, Vaqif Mustafayev, Oqtay Mirqasımov, Xamis Muradov, Əməkdar incəsənət xadimləri – kinooperator Rafael Qəmbərov, kinoşünas Aydın Kazımzadə, rejissor, kinoşünas Ayaz Salayev, Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov çıxış edərək sənətkarın həyat və fəaliyyəti haqqında fikirlərini, xatirələrini bölüşdülər.

Vurğulandı ki, Azərbaycan Professional Kinorejissorlar Gildiyasının yaradıcılarından olan Eldar Quliyev ilk gündən ömrünün sonuna kimi qurumun prezidenti olub. Rüfət Həsənov



"Debüt" studiyasında Eldar Quliyevdən sənətin sirlərini öyrəndiyini və onun həmişə gəncləri öyrətmək istəyini xüsusi qeyd etdi. Çıxışlarda rejissorun yaradıcılığı ilə yanaşı yüksək insani keyfiyyətlərindən də söz açıldı. Eldar Quliyevin daxilən aristokrat, çox erudisiyalı, intellektual cəhətdən inkişaf etmiş, yüksək daxili mədəniyyətə malik şəxsiyyət olduğu vurğulandı.

Rejissorun qızı İradə Quliyeva tədbirin təşkilatçılarına və atasının xatirəsinə ehtiram göstərən hər kəsə dərin minnətdarlığını ifadə etdi.

Anım mərasimində Eldar Quliyevin quruluş verdiyi iki qısametrajlı ekran işi – "Gözləmə saatı" və "Biri vardı, biri yoxdu..." filmləri nümayiş olundu.

"Biri vardı, biri yoxdu..." filmi yazıçı Salam Qədirzadənin "Xəzan yarpaqları" hekayəsinin motivləri əsasında çəkilib. Filmdə iki nəfərin – qoca kişi ilə qarının nisgilli ovqatlarından, təsadüfi tanışlıqdan sonra qarşılıqlı qayğılarından bəhs olunur. "Gözləmə saatı" isə bir şəxsin tənhalığı və dünyasını dəyişən doğmalarına qarşı münasibətindən bəhs edir.

Eldar Quliyev 1969-cu ildə ilk böyük ekran əsəri olan "Bir cənub şəhərində" filmi ilə özünü rejissor kimi təsdiqləyib və bu filmlə Azərbaycan kinosunda yeni bir mərhələnin təməlini qoyub. 1979-cu ildə "Babək" filmini çəkib ki, həmin ekran əsəri peşəkarlıq səviyyəsinə, kütləvi və döyüş səhnələrinin miqyasına görə heç də xaricdə istehsal olunan bu tipli işlərdən geri qalmırdı. Rejissor həmçinin "Ən vacib müsahibə", "Var olun, qızlar...", "Ürək... Ürək…", "Nizami", "Nə gözəldir bu dünya...", "Girov", "İstanbul reysi", "Dərvişin qeydləri" və s. filmlərə də quruluş verib.

**L.Azəri**

# Görkəmli musiqişünas alimin 90 illiyi qeyd olundu

Aprelin 15-də Musiqi Mədəniyyəti Dövlət Muzeyində görkəmli musiqişünas alim, pedaqoq, Əməkdar incəsənət xadimi, professor Elmira Abbasovanın (1932-2009) 90 illiyinə həsr olunan tədbir keçirildi.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova tədbiri açaraq musiqişünasın həyat və yaradıcılıq yolundan danışdı. Bildirdi ki, Elmira Abbasova 1955-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını musiqişünaslıq ixtisası üzrə bitirib. Həmin ildən ömrünün sonunadək bu təhsil ocağında pedaqoji fəaliyyət göstərib. O, indiki Bakı Musiqi Akademiyasının ilk qadın rektoru olub.

Əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadə çıxışında E.Abbasovanın Azər-



baycan musiqi mədəniyyətindəki rolundan, verdiyi töhfələrdən bəhs etdi. Diqqətə çatdırdı ki, alimin "Üzeyir Hacıbəylinin opera və musiqili komediyaları", "Üzeyir Hacıbəylinin "Koroğlu" operası", "Üzeyir Hacıbəyli: həyat və yaradıcılıq yolu" monoqrafiyaları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb: "O öz əsərləri ilə Azərbaycanla Avropa bəstəkarlıq məktəbi arasında əbədi bir körpü yaratdı. Məhz Üzeyir bəydən sonra Şərq və Qərb musiqisi mədəniyyətləri arasında bağlılıq öz bəhrəsini verdi. Azərbaycan bəstəkarlarının yaratdığı nəhəng musiqi abidələrinin şöhrəti elləri dolaşdı...".

Qeyd olundu ki, E.Abbasova görkəmli bəstəkarlar Qara Qarayev, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Səid Rüstəmov, böyük müğənni Rəşid Behbudov, ustad tarzənlər Qurban Pirimov və Bəhram Mansurov kimi musiqi xadimləri haqqında da araşdırmalar aparıb, məqalələr çap etdirib.

Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi Nazim Kazımov, Bakı Musiqi Akademiyasının dosenti Xatirə Həsənzadə də alimin zəngin yaradıcılıq yolundan söz açdılar. Bildirildi ki, E.Abbasova muğamın elmi şəkildə öyrənilməsi üçün böyük səy göstərib. SSRİ Bəstəkarlar İttifaqının təşəbbüsü və V.Vinoqradovun redaktorluğu ilə hazırlanan, keçmiş ittifaqın respublika və xalqlarını əhatə edən "Xalq müğənniləri və musiqiçiləri" silsilə nəşrlərində iştirak edib. Onun Q.Pirimov və B.Mansurov haqqında broşürləri həmin layihə çərçivəsində işıq üzü görüb.

E.Abbasovanın qızı, Bakı Musiqi Akademiyasının dosenti Kaminə Məmmədova çıxış edərək tədbir iştirakçılarına təşəkkürünü bildirdi, anası ilə bağlı xatirələrini bölüşdü.

Çıxışlar muzeyin zəngin materialları əsasında hazırlanmış videoçarxla müşahidə olunurdu.

Sonda Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Ülviyyə Hacıbəyova, Əməkdar artist Fərid Əliyev, Bakı Musiqi Akademiyasının dosenti Nərgiz Salmanlı, Azərbaycan Dövlət Fortepiano Triosu – Əməkdar artistlər Töhfə Babayeva, Elnarə Kəbirlinskaya, Səbinə İbrahimova, BMA-nın tələbələri Natəvan Səlimova, Ofelya Dadaşova və beynəlxalq müsabiqələr laureatı Səbinə Quliyevanın ifalarında Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı təqdim edildi. Çıxışlar alqışlarla qarşılandı.

**Savalan**

# "Nərimanovu anırıq"

## Xatirə muzeyində "açıq qapı" aksiyası və sərgi keçirilib

Aprelin 14-də Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi, həkim, yazıçı, dramaturq, publisist Nəriman Nərimanovun (1870-1925) anadan olmasının 152-ci ili tamam oldu. Bu münasibətlə ədibin Bakıdakı xatirə muzeyində "açıq qapı" günü keçirilib, "Nərimanovu anırıq" adlı rəsm sərgisi təşkil edilib.



Tədbiri giriş sözü ilə açan Nəriman Nərimanovun Xatirə Muzeyinin direktoru Ləman Hüseynova deyib ki, bu ilin fevral ayında Sumqayıt şəhərindəki N.Nərimanov adına Mədəniyyət Mərkəzi nəzdindəki rəsm dərnəyinin üzvlərindən bir qrupu mədəniyyət ocağını ziyarət edib. O zaman uşaqlar ekspozisiyada hər bir eksponatı diqqətlə nəzərdən keçirib, Nərimanovun həyat və fəaliyyəti haqqında ətraflı məlumat əldə etməyə çalışıblar.

N.Nərimanov adına Mədəniyyət Mərkəzi nəzdindəki rəsm dərnəyinin rəhbəri Sevinc Həmzəyeva diqqətə çatdırıb ki, şagirdlər muzeydə gördüklərini rəsmlərində təsvir ediblər.

Sənətşünas, Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyev balaca rəssamların zəhmətini təqdir edərək onlara uğurlar arzulayıb.

Digər çıxış edənlər də şagirdlərin əl işlərindən ibarət sərgini yüksək qiymətləndiriblər. Qeyd olunub ki, bu qəbildən tədbirlər N.Nərimanov şəxsiyyətinin unudulmayacağına, onun keşməkeşli həyat yolunun həmişə diqqət mərkəzində olacağına sübutdur.

Tədbirin sonunda əl işləri sərgilənən şagirdlər və rəsm dərnəyinin rəhbəri Sevinc Həmzəyeva muzeyin təşəkkürnaməsi ilə təltif olunub. Sərgidə nümayiş olunan işlərdən bir neçəsi muzeyə hədiyyə edilib.

**Nurəddin**

# Rənglər dünyasının sehrində köhnə Bakıya səyahət

## Həkim-rəssamın sərgisi



AMEA Milli Azərbaycan Tarixi Muzeyində aprelin 8-də həkim-rəssam Rauf Canıbəyovun "Köhnə Bakı – fırça yaddaşında" adlı sərgisinin açılışı keçirildi.

Sərgilərin açılışı əsasən rəsmi hissələrlə başlayar. Bu sərgidə də rəsmi hissə vardı. Amma bütün çıxışlar rəsmiyyətdən kənar, səmimi, sevgi dolu idi.

Tədbiri giriş sözü ilə muzeyin Təsviri materiallar fondunun müdiri Nardanə Yusifova açaraq belə bir sərgini ilk dəfə təşkil etdiklərini diqqətə çatdırdı. Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov çıxışında dedi ki, bir neçə sənət sahəsi ilə məşğul olan Rauf Canıbəyov əsasən yağlı boya, karandaş və rəqəmsal qrafika ilə işləyir. Onun əsərlərinin əsas cəhəti isə səmimilik və sevgidir.

Xalq rəssamı Arif Hüseynov sərgini köhnə Bakıya səyahət adlandırdı. Fırça ustası rəsmlərdəki bir sıra küçənin və insanların səmimiyyətinin, təəssüf ki, tarixə qovuşduğunu qeyd etdi.

Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev paytaxtın keçmişinin gələcək nəslə ötürülməsi baxımından sərginin və əsərlərin əhəmiyyətindən söz açdı.

Qeyd edildi ki, rəssam əsərlərinin əksəriyyətini köhnə Bakıya, onun sakit küçələrinə, məhəllələrinə, milli memarlığına, mehriban və ünsiyyətli sakinlərinin məişətinə həsr edib. Rəssamın köhnə Bakı mövzusuna müraciət etməsinin əsas məqsədlərindən biri də paytaxtımızın qədim tarixə malik şəhər kimi gələcək nəsillərə fırçanın dili ilə ötürə bilməsi və yaddaşlarda əbədi olaraq həkk olunmasıdır.

Sərgidə ümumilikdə 57 əsər nümayiş olunurdu. Rauf Canıbəyovun dəst-xətti, manerası və seçilmiş mövzuya uyğun sənət nümunələri sanki qədim şəhərimiz haqqında bir nağıl danışır. Yağlı boya, karandaş və rəqəmsal qrafikadan ibarət, müxtəlif texnikalardan istifadə edərək ətrafdakı gözəllikləri canlandırmağa çalışan rəssamın işləri unikallığı və janr müxtəlifliyi ilə seçilir. Onu da qeyd edək ki, bu maraqlı sənət nümunələri rəssamın çox kiçik emalatxanasında ərsəyə gəlib. Elə bu səbəbdən də əsərlərin sırasında genişhəcmli nümunələrə rast gəlmək olmur. İncəsənət sahəsi üzrə, bir gün də olsun, dərs almayan rəssamın əl işləri hər kəsi heyran qoyur, düşünməyə vadar edir. Müəllifin tabloları insana kədər və nostalji hisslər bəxş etsə də, dərinliyində bir düşüncə gizlənir. Rəssam hər bir əsərində insanları işığa, uca, ali hisslərə səsləyir.



Sərgini izlədikcə rəssamın duyğuları, xarakterinin an və təzadları, həyat yolunun ağqara dolanbacları gözlər önündə canlanır. Bakı haqqında nağıl danışan bu sərgidə bir anlıq bu gün artıq tarixə qovuşub yaddaşlarda yaşayan "Axşam tramvayı"nda şəhərin küçələrini səyahətə çıxırsan. Bu küçələrdə qarşına elə o köhnə, qırlı küçələrin ağsaqqal kişiləri, başı örpəkli xanımları çıxır. "İçərişəhər" silsiləsində isə dar, dolanbac küçələrdə itib-batırsan. Qulağına haradasa uzaqlardan unudulmaz rejissor Arif Babayevin film qəhrəmanlarının səsləri gəlir... Bir anlıq gözünə düşən işıq səni xəyaldan ayırır. Baxırsan ki, şəhərin küçələrinin yağışlı asfaltında bərq vuran lampaların işığıdır və səni "Abşeron motivləri"nə qərq edir. İşıq selinin ağuşunda "Bağ mövsümü"nün ab-havasına boylanırsan. Bakı bağlarının qızmar qızıl qumunda, günəşin istisindən ayaqları yanaraq qaçan uşaqların şən-şaqraq səsləri gəlir qulağımıza. Bu istidən qaçıb "Tut ağacı"nın altında sərinləyirsən və isti bir Buzovna yeli sənə tarın sədalarında

*Tut ağacım, tut ağacım,*
*Aman yerim, güman yerim.*
*Xatirələr qanadında*
*Yaşatdığım pənah yerim...*

– deyə pıçıldayır...

Tut ağacından asılıb kimsəsiz qalan yelləncək isə xəyallar aləmində sənə kimlərdən və nələrdən danışmır ki... Haradansa burnumuza Bakının simvolu olan neft qoxusu gəlir. Göydələnli, müasir Bakımızda isə bu gün bu qoxudan əsər-əlamət belə yoxdur. "Artıq olmayan küçə"dən keçib, görəsən, bu gün həmin küçənin sakinləri həmin tarix üçün darıxırlarmı düşüncəsi ilə "Bakı – küləklər şəhəri"nə düşüb real dünyamıza qayıdırıq...

Bu dünyada isə həyat yenə öz axarındadır. Nə köhnə Bakı var, nə də onun insanları. Sərgi zalında səsdən, belə demək mümkünsə, ağız deyəni qulaq eşitmir. Həkim həmkarları sərgi müəllifini təbrik edirlər.

Bu an söz Rauf Canıbəyova verilir. O, qonaqlara təşəkkür edərək sərgidə nümayiş olunan əsərlər içərisində həcminə görə ən böyük olanını – "Bakı – küləklər şəhəri"ni Milli Azərbaycan Tarixi Muzeyinə hədiyyə kimi baş mühafiz Məhfuzə Zeynalovaya təqdim edir.

Rauf Canıbəyovun yaradıcılığı çoxşaxəli, əsərlərinin mövzuları müxtəlifdir. İnanırıq ki, "Köhnə Bakı – fırça yaddaşında" sərgisi yaddaşlarda əbədi qalacaq.

**Lalə**

# Rostropoviçlərin Ev-Muzeyində Dünya İncəsənət Günü qeyd olunub

Aprelin 15-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Mədəni tədbirlərin təşkili və yaradıcı gənclərlə iş üzrə mərkəzinin, Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyinin birgə təşkilatçılığı ilə Dünya İncəsənət Günü münasibətilə tədbir keçirilib.

Muzeydə keçirilən tədbir eyni zamanda dünya şöhrətli violonçel ifaçısı Mstislav Rostropoviçin (1927-2007) 95 illiyinə həsr edilib.

Bu münasibətlə qonaqlar üçün maraqlı musiqi proqramı da hazırlanıb.

Tədbirdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev, mədəniyyət müəssisələrinin rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

L. və M.Rostropoviçlər adına 21 nömrəli onbirillik Musiqi məktəbinin şagirdləri, respublika və beynəlxalq müsabiqə laureatları konsert proqramı ilə çıxış ediblər.



Xatırladaq ki, Dünya İncəsənət Günü 2019-cu ildə UNESCO Baş Konfransının Parisdə keçirilən 40-cı sessiyasında təsis olunub.

# Sağlamlıq imkanları məhdud uşaqlar üçün "Oxu saatı"

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının "Oxu saatı" layihəsi üzrə növbəti görüş keçirilib. Aprelin 15-də Bakı Kitab Mərkəzinin uşaq guşəsində gerçəkləşən görüşün qonağı Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyorları, Əməkdar artist Elnur Kərimov və Elşən Hacıbabayev olub.

Tədbirdə sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli Respublika xüsusi internat məktəbi və Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının şagirdləri iştirak ediblər.

Elnur Kərimov şagirdlər üçün dünya xalqlarının müxtəlif nağıllarını oxuyub. Nağılları sağlamlıq imkanları məhdud uşaqlar üçün jest dilində "Səssiz Ünsiyyət" Jest Dilinin İnkişafına Dəstək İctimai Birliyinin təlimçisi Könül Quliyeva təqdim edib.

Gənc Tamaşaçılar Teatrının aktyoru Elşən Hacıbabayev isə uşaqlarla birlikdə Abdulla Şaiqin şeirlərini səsləndirib.

**Həsən Əbluc – 80**

# Sənətinin ustadı



Rollar aktyorları hafizələrə yazanda sənət həyat üçün vacibliyini, gücünü təsdiqləyir, qəlblərdə yaşamaq üçün böyük fədakarlıq, mübarizlik, dözüm tələb etdiyini anladır. Obrazlarla yanaşı tamaşaçıları səsinin sehrinə valeh etmək xoşbəxtliyi isə hər aktyora nəsib olmur. Görkəmli sənətkar, Əməkdar artist Həsən Əbluc (1942-1994) yaratdığı obrazlarla bərabər ekrandan düşüncələrə, qəlblərə süzülən bənzərsiz səsinin sehri ilə milyonların rəğbətini qazanıb. Bədii qiraət ustası kimi də tanınan, poeziya nümunələrini çoxsaylı tamaşaçıya, dinləyiciyə çatdıran sənətkarın radio tamaşalarında da səslənən müdrik, məxməri səsinin sehrində nəsillər tərbiyələnib, maariflənib.

Sənətkarın 80 illik yubileyi ərəfəsində əziz xatirəsini ehtiramla yad edirik. Fürsətdən istifadə edib sənət dostlarının xatirələrində fərdi cəhətlərinə, sənətkarlıq xüsusiyyətlərinə daha yaxından bələd olmağa çalışacağıq.

Sənətkar ömründən epizodlar...

### Heç kəsə bənzəmirdi

Xalq artisti, rejissor **Ramiz Həsənoğlu**: "Həsən müəllimlə yaş fərqimiz çox omasa da, sözün əsl mənasında, o, mənim müəllimim olub. İncəsənət İnstitutunda təhsil aldığım vaxtlarda mənə səhnə danışığından dərs deyib. O, böyük ustaddır, sənətinin ustadıdır. Bunu onun müasirləri də çox gözəl başa düşürdülər. Çünki Həsən Əbluc sənətinin sevilən vaxtı digər məşhur sənətkarlar da var idi və onun böyüklüyü onda idi ki, heç kəsə bənzəmirdi. Özünəməxsus intonasiyası, bənzərsiz səs tembri var idi. Azərbaycan dilini, səhnə danışığını gözəl bilirdi. Buna görə də sevilirdi. Nə yaxşı ki, Azərbaycan televiziya və radiosunda onun çıxışları qalıb. Tez-tez onu dinləyir, istedadı haqqındakı təsəvvürlərimizi genişləndirə bilirik.

Tale elə gətirdi ki, müəllimimlə birgə çalışdıq. O, mənim quruluş verdiyim iki tamaşada iştirak etdi. Birincisi yazıçı Anarın əsəri əsasında çəkilən televiziya tamaşası idi. Digəri isə yazıçı İsi Məlikzadənin ssenarisi əsasında çəkdiyim "Qatarda" televiziya tamaşasıdır. Bu tamaşada Sabit Mirzə rolunu oynayırdı. Personajın xarakteri Həsən Əclucun xarakterinə o qədər də yaxın və uyğun olmasa da, Həsən rolun səciyyəvi cəhətlərini böyük ustalıqla göstərdi. Sabit Mirzə sakit təbiətli bir obrazdır. Həyatda isə Həsən çılğın, emosional insan idi, hadisələrə dərhal reaksiya verirdi. Obraza daxil olaraq Sabit Mirzə rolunu çox inandırıcı oynamışdı və bu rol yaddaşlarda qaldı. Həmin illəri, onunla birgə gördüyümüz işləri tez-tez xatırlayıram. Onun adı çəkiləndə elə bil ruhum təzələnir. Yenidən o illərə qayıdıram. Allah ona rəhmət eləsin. Ruhu şad olsun. Mən onu heç vaxt unutmuram...".

### Böyük istedad

Əməkdar incəsənət xadimi, kinooperator **Kənan Məmmədov**: "Həsən Əblucla kinostudiyanın dəhlizində tez-tez görüşüb, hal-əhval tuturduq. Münasibətimiz həmişə yaxşı olub. Aktyor kimi onu iki dəfə – "Qanlı zəmi" və "Qara gölün cəngavərləri" filmlərində çəkdim. Rolları həcm etibarilə böyük olmasa da, Həsən ekran personajlarını peşəkar aktyor kimi yüksək səviyyədə yaratdı. Xüsusi olaraq qeyd edim ki, "Qanlı zəmi" filmində oynadığı obrazı (kəndxuda) çəkdikdə çox təəccübləndim. O, rolun faciəsini olduqca təsirli ifa etdi. Çəkilişdən sonra da mənə rol haqqında maraqlı fikirlər söylədi.

"Qara gölün cəngavərləri" filmindəki rolunu (Cəmşid Hüseynov) da məharətlə oynamışdı. Obraz kiçikplanlı olsa da, baxanda düşünürsən ki, bu rol elə belə də olmalı idi.

Həsənin xüsusi danışıq istedadı var idi. Bu xoşbəxtlik hər aktyora qismət olmur. Azərbaycan Televiziyasında yayımlanan ədəbi-dram verilişlərində tez-tez çıxış edirdi. Hamımız da onu maraqla izləyirdik. Ədəbiyyata, şeirə olan münasibəti çox yüksək səviyyədə idi. O, böyük şəxsiyyət, böyük istedad idi. Təəssüf edirəm ki, həyatdan tez getdi...".

### Ondan sənət istiqaməti alırdılar

Əməkdar mədəniyyət işçisi, səs rejissoru **Əsəd Əsədov**: "Həsən Əblucla dublyajda uzun müddət işləmişik. O, yerli və xarici filmlərin səsləndirilməsində yaxından iştirak edirdi. Onunla birlikdə səsləndirmədə iştirak edən həmkarları ondan sənət istiqaməti alırdılar. Ahəngdar, məxməri səsi həmişə seçilirdi. Həmişə də ona baş rolları səsləndirməyi həvalə edirdilər. Azərbaycan dilini gözəl bilirdi, diksiyası qüsursuz idi. Həm də bilirdilər ki, Həsən işinə ciddi yanaşır, öhdəsindən də bacarıqla gəlir. İndi də birlikdə işlədiyimiz həmin anları yadıma salıram. Onunla işləmək çox rahat idi. Çünki dublyaj aktyoru filmdə çəkilən aktyoru elə səsləndirməlidir ki, dublyaj olunduğu bilinməsin. Bu mənada Həsən Əblucun dublyaj fəaliyyətinin misli yox idi. Təəssüf edirəm ki, kinoda aktyor kimi az çəkildi.



Onun yaddaqalan, uğurlu səsləndirmələrindən biri də "Yaramaz" filmində baş rolu (Hətəm) oynayan Mamuka Kikaleyşvilini səsləndirməsidir. Bir gün Mamuka dublyaj studiyasına gəldi və rolunun səsləndirilmə variantını dinlədi. Məmnunluq hissi ilə qeyd etdi ki, "sluşay, on qovorit luçşe, çem ya...". Həsən Əblucun onun obrazını səsləndirməsi çox xoşuna gəlmişdi. Elə Həsənin səsləndirməsinin də filmin uğurunda rolu oldu ki, filmin yaradıcı heyəti ilə birlikdə mənə də Dövlət mükafatı verdilər...".

### Dostluğa sadiq, qürurlu insan idi

Xalq artisti **Tariyel Qasımov**: "Aktyor olmağı arzulasam da, atamın istəyinə görə Bədən Tərbiyəsi İnstitutuna qəbul oldum. Təhsil aldığım müddətdə Lütfi Məmmədbəyovun rəhbərlik etdiyi dram dərnəyinə gedirdim. Orda Şahmar Ələkbərov və Həsən Əblucla dostlaşdım. Şahmar həmin vaxtlarda orta məktəbin sonuncu sinfində oxuyurdu. Həsən isə Politexnik İnstitutunun (indiki Texniki Universitet) birinci kursunda oxuyurdu. Bir gün Həsən təklif etdi ki, gəlin, bu il üçümüz də sənədlərimizi İncəsənət İnstitutuna verək. Şahmar dedi ki, mənim arzum aktyor olmaqdır. Dram dərnəyinə də bunun üçün gəlirəm. Tariyellə sən isə tələbəsən. Yenə də fikirləşin, istəyirsinizsə, sənədlərimizi birlikdə verək. Biz elə də etdik. Hər üçümüz Aktyorluq fakültəsinə qəbul olunduq. Görkəmli sənətkar Rza Təhmasibin kursunda sənət dərsi aldıq. Hər üçümüz əlaçı idik. Şəklimizi şərəf lövhəsinə vurmuşdular. Təqaüdümüz də digər tələbələrinkindən artıq idi. Beləcə, biz sənətdə və həyatda həmişə bir yerdə olurduq, dostluğumuzu davam etdirirdik.

Mən İncəsənət İnstitutuna qəbul olunduğuma görə atam xəbər göndərmişdi ki, mənim o adlı oğlum yoxdur. Mən pis olmuşdum və kefsiz gəzirdim. Şahmar nə olduğunu soruşanda olanları ona dedim. O, məni evlərinə apardı. İnstitutu bitirənə qədər dörd il ərzində onlarda qaldım. Həsən də tez-tez dərsdən sonra Şahmargilə gəlirdi. Bir gün Şahmarın anası Həsənə dedi ki, Həsən, ya sən köç gəl bizdə yaşa, ya da evə belə gec saatlarda getmə. Evinizdə sənin üçün narahat olarlar. Həsən belə də etdi. Bir müddət köçüb Şahmargildə yaşadı.

İnstitutu bitirdikdən sonra Şahmarla mən Akademik Dram Teatrında işlədik, Həsən isə Gənc Tamaşaçılar Teatrına getdi. Mən bir il sonra Həsənin yanına Gənc Tamaşaçılar Teatrına getdim. Həmin vaxtlarda teatrda görkəmli rejissor Zəfər Nemətovun quruluşunda "Komsomol poeması" tamaşası oynanılırdı. Həsən həmin tamaşada Cəlal rolunu canlandırırdı. Mən bu rolu institutda (diplom işimdə) oynadığım üçün sözlərini əzbər bilirdim. Bir gün Həsəndən soruşdum ki, necə edim mən də bu tamaşada oynayım? O, dedi ki, mən bir gün teatra gəlmərəm, sən hazır gəl, mənim yerimə sən səhnəyə çıxarsan. Biz elə də etdik. Həsən tamaşa oynanılan gün teatra gəlmədi. Zəfər Nemətov tez-tez gəlib Həsəni soruşurdu. Ona bildirdim ki, rolun sözlərini əzbər bilirəm, tələbə olarkən Cəlal obrazını oynamışam. Belə olan halda səhnəyə mən çıxası oldum. İfamı bəyəndilər, ertəsi gün əmrim verildi, həmin tamaşada Cəlal obrazını bir gün mən, bir gün Həsən oynadı. Həsən dostluğa çox sadiq idi.

Biz institutu 1965-ci ildə bitirmişdik. Həmin vaxt "Liftçi qız" filmi çəkilirdi. Məni də həmin filmin sınaq çəkilişinə dəvət etmişdilər. Çəkilişə gedəndə Həsən dedi ki, Tariyel, əgər səni bu filmdə çəksələr, rolunu mən səsləndirəcəm. Dedim, Həsən, kaş ki, bir yox, bir neçə filmə çəkilim, hamısını da sən səsləndir. Həsənin çox gözəl səsi var idi, hamı da bəyənirdi. Sözügedən filmə çəkildim. Rolumu səsləndirmə vaxtı gəlib çatanda Həsəni də götürüb getdim studiyaya. Xuraman Qasımovanın oynadığı obrazı (Lalə) Əminə Yusifqızı səsləndirdi. Filmin rejissoru Rüfət Şabanov dedi ki, Tariyel, indi dur sənin səsini yazaq. Dedim ki, Rüfət müəllim, siz məni Nəriman rolunun sınaq çəkilişinə çağıranda Həsən mənə xeyir-dua verdi və dedi ki, rolu mən səsləndirəcəm. Rüfət müəllim "lap yaxşı, onda səni Həsən səsləndirsin" dedi. Onu da qeyd edim ki, həmin vaxtlar dublyajda maaş yüksək olduğu üçün aktyorların çoxu dublyajla məşğul olurdu...

Bir dəfə Gənc Tamaşaçılar Teatrında "Romeo və Cülyetta" tamaşasının məşqləri gedirdi. Romeo rolunu növbəli olaraq Həsənlə digər aktyor oynamalı idi. Tamaşanın ilk təqdimatı günü Həsən teatra gəlir, siyahıda adını görməyib bərk təsirlənir və tamaşaya baxmadan evə qayıdır. Ertəsi gün işə getməsi üçün anası onu oyatmağa gələndə Həsən ona cavab vermir. Anası bir neçə dəfə Həsəni çağırır, lakin ondan səs gəlmədiyini görüb yorğanı başından çəkir. Həsənin bir gecədə saçlarının ağardığını görür. Həsən çox qürurlu insan idi. Tamaşada oynamadığını həzm edə bilmədiyindən bir gecədə saçları ağarmışdı.

Yadımdadır, Şahmar rəhmətə gedəndə hamı onunla vidalaşdıqdan sonra dağılışdı, amma Həsən getmədi. Mən durub gözləyirdim. İnsanlar getdikdən sonra Həsən qəbrin üstündə uzandı və hönkürtü ilə ağladı, "Şahmar, tezliklə yanına gələcəm" dedi. O, rəhmətə gedəndə Şahmarın yanında dəfn etdilər..." .

**Şəhla Əmirli**
**kinoşünas**

## Xatirə təqvimi — 20-24 aprel

### Azərbaycan

**20 aprel 1894** – Xalq artisti, aktyor və rejissor Rza Abbasqulu oğlu Təhmasib (1894 – 14.2.1980) Naxçıvanda doğulub. "Bakıda küləklər əsir", "Qanun naminə" və s. filmlərdə çəkilib, "Səbuhi", "Arşın mal alan" (1945), "Onu bağışlamaq olarmı?" və s. filmlərin rejissorudur. Akademik Dram Teatrının direktoru, Azərbaycan Teatr Cəmiyyətinin sədri olub.

**20 aprel 1906** – Əməkdar incəsənət xadimi, ilk azərbaycanlı musiqişünas qadın Xurşid Ağayeva (1906 - 3.12.1953) anadan olub. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından Həsən bəy Ağayevin qızıdır.

**20 aprel 1907** – Xalq şairi Məmməd Rahim (1907 – 6.5.1977) anadan olub. "Leninqrad göylərində", "Abşeron torpağında", "Natəvan" poemaları, "Xaqani" mənzum dramının müəllifidir. Rus ədəbiyyatından tərcümələr edib.

**20 aprel 1916** – Xalq artisti, görkəmli teatr və kino aktrisası Nəsibə Cahangir qızı Zeynalova (1916 – 10.3.2004) Bakıda anadan olub. 1938-ci ildən Musiqili Komediya Teatrında çalışıb. "Ögey ana", "Böyük dayaq", "Ulduz", "Qanun naminə", "Qayınana", "Yuxu" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**20 aprel 1920** – Əməkdar incəsənət xadimi Əşrəf Hacı oğlu Quliyev (1920-1994) Bakıda doğulub. İrəvan Dövlət Azərbaycan Dram Teatrında aktyor, Akademik Milli Dram Teatrında rejissor işləyib. Mədəniyyət və İncəsənət Universitetində Rejissor sənəti kafedrasının müdiri olub.

**20 aprel 1920** – Yazıçı-dramaturq, şairə Xanımana Sabir qızı Əlibəyli (1920 - 7.5.2007) Bakıda doğulub. Uşaqlar üçün 30-dək kitabın, o cümlədən "Gözəllər gözəli", "Dovşanın ad günü" və s. pyeslərin müəllifidir.

**20 aprel 1926** – Tarzən Əlikram Həsən oğlu Hüseynov (1926-2006) anadan olub. Opera və Balet Teatrının orkestrində çalışıb, bir çox rəqslərimiz onun instrumental ifasında lentə alınıb.

**20 aprel 1944** – Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndəsi, bənzərsiz muğam ifaçısı, Xalq artisti Cabbar Qaryağdıoğlu (1861-1944) vəfat edib.

**21 aprel 1931** – Xalq artisti, pianoçu Tamilla Zahid qızı Mahmudova (1931 – 12.9.2014) Bakıda doğulub. Azərbaycan Radio Komitəsinin, 1954-cü ildən "Moskonsert"in solisti olub. "Rusiyanın Əməkdar artisti" adına layiq görülüb.

**21 aprel 1951** – Əməkdar artist, opera müğənnisi Cəlil bəy Əmrah oğlu Bağdadbəyov (1887-1951) vəfat edib.

**22 aprel 1894** – Xalq artisti Ağahüseyn Xəlil oğlu Cavadov (1894 – 20.7.1981) Bakının Xırdalan kəndində anadan olub. Türk İşçi, Akademik Dram, Musiqili Komediya teatrlarında işləyib. "Qızmar günəş altında", "Bir qalanın sirri", "Görüş", "Şərikli çörək" və s. filmlərdə maraqlı obrazlar yaradıb.

**22 aprel 1911** – Xalq rəssamı Hüseyn Əlirza oğlu Əliyev (1911 – 25.5.1991) Zəngəzur mahalının Comərdli kəndində doğulub. İlk karikaturaları "Molla Nəsrəddin" jurnalında dərc olunub, "Kommunist" qəzetində (indiki "Xalq qəzeti") rəssam işləyib. Əsasən qrafika ilə məşğul olub, mənzərə ustası kimi tanınıb.

**22 aprel 1912** – Əməkdar incəsənət xadimi, musiqişünas Məmmədsaleh Cəmil oğlu İsmayılov (1912 – 10.5.1994) anadan olub.

**22 aprel 1935** – Əməkdar artist Firdovsi Qiyas oğlu Naibov (1935 – 29.11.2009) Ağdamda doğulub. Milli Dram, Gənc Tamaşaçılar teatrlarının aktyor olub, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**22 aprel 1942** – Görkəmli aktyor, Əməkdar artist Həsən Abbasqulu oğlu Əbluc (1942 – 13.3.1994) Təbrizdə doğulub. Uşaq yaşlarında ailəsi ilə Bakıya köçüb. Televiziya tamaşalarında, kinoda ("Qanlı zəmi", "Tənha narın nağılı" və s.) maraqlı obrazlar yaradıb, "Pəncərə" filminə quruluş verib. Filmlərin səsləndirilməsində iştirak edib.

**22 aprel 1983** – Azərbaycanın ilk kino aktrisalarından olan İzzət Mirzəağa qızı Orucova (16.9.1909 – 1983) vəfat edib. "Sevil" (1929), "Almaz" (1936) filmlərində baş rollarda çəkilib.

**23 aprel 1909** – Yazıçı-publisist Səməd Ağaoğlu (Səməd Əhməd bəy oğlu Ağayev; 1909 – 6.8.1982) Bakıda doğulub. Atası Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olub, Cümhuriyyətin süqutundan sonra ailəsi Türkiyəyə mühacirət edib. Səməd Ağaoğlu Türkiyə Böyük Millət Məclisinin üzvü, baş nazirin müavini, nazir olub.

**24 aprel 1866** – Yazıçı-publisist, maarif xadimi Sultanməcid Hacı Murtuzəli oğlu Qənizadə (1866-1942) Şamaxıda doğulub. Teatr xadimləri haqqında xatirələr yazıb, rus yazıçılarından tərcümələr edib.

**24 aprel 1902** – SSRİ Xalq artisti İsmayıl Osman oğlu Osmanlı (1902 – 22.6.1978) Şəkidə anadan olub. Akademik Dram Teatrında çalışıb. "O olmasın, bu olsun", "Mən ki gözəl deyildim", "Nəsimi", "Yeddi oğul istərəm" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**24 aprel 1941** – Əməkdar artist Rafiq Mirzəcan oğlu Hüseynov (1941-2018) Hacıqabul rayonunda doğulub. Gənc Tamaşaçılar Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**24 aprel 2011** – Xalq şairi, ədəbiyyatşünas Balaş Azəroğlu (Balaş Allahbaxış oğlu Abizadə; 11.11.1921 – 2011) vəfat edib.

### Dünya

**20 aprel 1927** – Rus aktyoru Pavel Borisoviç Luspekayev (1927-1970) anadan olub. Ömrünün son illərində ayaq barmaqları amputasiya olunsa da, "Səhranın bəyaz günəşi" filmində çəkilib.

**21 aprel 1816** – İngilis yazıçısı və şairi Şarlotta (Charlotte) Bronte (1816-1855) anadan olub. "Ceyn Eyr", "Müəllim", "Yaşıl cırtdan" və s. romanların müəllifidir.

**22 aprel 1707** — İngilis yazıçısı Henri Fildinq (Henry Fielding; 1707-1754) anadan olub. Əsərləri: "Cozef Edrüsün macəraları", "Tom Consun hekayəti", "Emiliya" və s.

**22 aprel 1724** – Alman filosofu İmmanuel Kant (1724-12.2.1804) anadan olub. Əsərləri: "Saf idrakın tənqidi", "Mənəviyyat metafizikasının əsasları" və s.

**22 aprel 1899** – Rus yazıçısı Vladimir Nabokov (1899-2.7.1977) anadan olub. 1919-cu ildə mühacirətə gedib, Fransada vəfat edib. Əsərləri: "Maşenka", "Lujin müdafiəsi", "Qətlə dəvət", "Lolita" və s.

**22 aprel 1922** – Amerika caz musiqisinin görkəmli nümayəndəsi Çarlz Minqus (Charles Mingus; 1922-1979) anadan olub.

**23 aprel** Dünya Kitab və Müəllif Hüquqları Günüdür (World Book and Copyright Day). 1995-ci ildə UNESCO tərəfindən Vilyam Şekspir və Migel de Servantesin xatirəsinə (23 apreldə vəfat ediblər) ehtiram olaraq təsis edilib.

**23 aprel 1616** – İngilis şairi və dramaturqu Vilyam Şekspir (William Shakespeare; 26.4. 1564 – 1616) vəfat edib. "Romeo və Cülyetta", "Hamlet", "Kral Lir", "Otello", "Makbet" və s. dram əsərlərinin, komediya və sonetlərin müəllifidir.

**23 aprel 1616** – İspan yazıçısı Migel de Servantes (Miguel de Cervantes Saavedra; 29.9.1547 – 1616) vəfat edib. Əsərləri: "Don Kixot", "Persiles və Sigizmunda" (roman), "Parnasa səyahət" (poema).

**23 aprel 1891** – Rus bəstəkarı Sergey Prokofyev (1891-1953) anadan olub. Əsərləri: "Hərb və sülh" (opera), "Romeo və Cülyetta", "Zoluşka" (balet) və s.

**23 aprel 1902** – İsland yazıçısı, Nobel mükafatı laureatı (1955) Haldour Kilyan Laksness (Halldór Kiljan Laxness; 1902-1998) anadan olub. Əsərləri: "İsland zınqırovu", "Qaytarılmış cənnət".

**24 aprel 1845** – İsveçrə yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1919) Karl Fridrix Şpitteler (Carl Friedrich Georg Spitteler; 1845-1924) anadan olub. Əsərləri: "Olimpiya baharı" (epik poema), "Prometey və Epimetey".

**Hazırladı: Vüqar Orxan**

# TÜRKSOY Türk dünyası rəssamlarını Bursada bir araya gətirib

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un ənənəvi layihələrindən biri də qardaş ölkələrin təsviri sənət ustalarının görüşünün təşkilidir. Son illər bu layihə bir qayda olaraq "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunan şəhərlərdə gerçəkləşir.

"Türk dünyası rəssamlar görüşü"nün növbəti ünvanı Bursa olub. Rəssamların görüşü "Bursanın fəthi və tarixi irsi" mövzusuna həsr edilib.

TÜRKSOY-un təşkilatçılığı və Bursa Osmanqazi Bələdiyyəsinin ev sahibliyi ilə Türk dünyasının müxtəlif ölkələrindən rəssamlar öz sənətlərini nümayiş etdirmək imkanı əldə ediblər. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan gələn təsviri sənət ustalarının çəkdikləri əsərlər aprelin 14-də "Panorama 1326 Bursa Fəth Muzeyi"ndə açılan sərgidə sənətsevərlərə təqdim olunub.



Sərginin açılışında çıxış edən TÜRKSOY-un Baş katibi Sultan Raev bu vəzifəni təhvil aldıqdan sonra ilk tədbiri 2022-ci ilin "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursanın ən gözəl rayonlarından biri olan Osmanqazidə keçirməkdən məmnunluğunu dilə gətirib: "Osmanqazinin dəyərli tarixi əsərləri, təbii gözəllikləri və qonaqpərvərliyi ilə Türk dünyası rəssamlarına qucaq açması təqdirəlayiqdir. TÜRKSOY ənənəvi olaraq sənət adamlarını Türk dünyasının şəhərlərində bir araya gətirir, onların görüşüb bir-biri ilə peşə təcrübələrini bölüşməsi üçün şərait yaradır. Beləliklə, xalqlarımız arasında mədəni əlaqələrin möhkəmlənməsinə daha bir zəmin yaranır...".

Osmanqazi Bələdiyyəsinin başqanı Mustafa Dündar çıxışında bu il 17-cisi keçirilən "Osman Qazini anma və Bursanın fəthi" şənlikləri çərçivəsində ən mühüm tədbirlərdən birinin "Türk dünyası rəssamlar görüşü" olduğunu vurğulayıb: "Türk dünyası rəssamları çox qısa müddətdə yaratdıqları əsərlərlə Bursanı öz sənət müşahidələri ilə kətan üzərində əks etdiriblər...".

Çıxışlardan və sərginin açılışından sonra Sultan Raev Osmanqazi Bələdiyyəsinin başqanına TÜRKSOY-un "Çingiz Aytmatov" xatirə medalı, qazax rəssamı Yermuxan Junisxana "Abay" medalı və sənət görüşünə qatılan rəssamlara TÜRKSOY-un sertifikatlarını təqdim edilib. Qeyd edək ki, Türk dünyası rəssamlarının "Bursanın fəthi və tarixi irsi" mövzulu sərgisində Azərbaycanı Cəlal Ağayev təmsil edib.

**Mehparə Sultanova**
**Ankara**

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Qazaxıstanla əməkdaşlığı genişləndirir



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Qazaxıstanın ölkəmizdəki səfiri Serjan Abdıkarimov ilə görüşüb.

Görüşdə Günay Əfəndiyeva rəhbəri olduğu qurumun qurucu üzv ölkəsi kimi Qazaxıstanla mədəni əlaqələrin daha çox inkişaf edəcəyinə inandığını bildirib.

Fondun büdcəsinin təsdiqlənməsi və təşkilatın katibliyinin beynəlxalq səviyyədə formalaşması ilə Türk dünyasının zəngin mədəniyyətinin, tarixinin geniş araşdırılması və tanıdılması yönündə layihələrin daha geniş miqyasda həyata keçiriləcəyi diqqətə çatdırılıb.

Səfir Serjan Abdıkarimov türk xalqları arasında birliyin güclənməsi, mədəni bağların dərinləşməsi istiqamətində fondun fəaliyyətini təqdir edib. Səfir Qazaxıstanın və bütövlükdə Türk dünyasının dahi şəxsiyyətlərinin yubileylərinin qeyd olunması, mədəni dəyərlərin təbliği yönündə fond ilə tərəfdaşlıq münasibətlərinə önəm verdiyini vurğulayıb.

Görüşdə 2022-ci il üzrə planlarla bağlı fikir mübadiləsi aparılıb.

## Daşkənd Beynəlxalq Animasiya Forumunda ölkəmiz də təmsil olunur

Aprelin 18-də birinci Daşkənd Beynəlxalq Animasiya Forumu işə başlayıb. Foruma Mərkəzi Asiya ölkələri, Azərbaycan, Gürcüstan, İsrail, Ukrayna və Rusiyanın aparıcı animasiya mütəxəssisləri, rəssam-multiplikatorlar qatılıb.




Ölkəmizi festivalda "Animafilm" Beynəlxalq Animasiya Festivalının direktoru Rəşid Ağamalıyev və tanınmış animasiya filmləri müəllifi Elçin Hami Axundov təmsil edir. Forumda "Azərbaycan animasiyasının 50 illiyi" adlı proqram çərçivəsində "Cırtdan", "Tıq-tıq xanım", "Cırtdan-pəhləvan", "Anam ağaca çıxıb", "İthaf" və digər filmlər təqdim olunub.

R.Ağamalıyev bildirib ki, "Azərbaycan animasiyasının 50 illiyi" proqramı bundan əvvəl Polşa, Yunanıstan və Gürcüstanda keçirilən beynəlxalq animasiya festivallarına qatılıb.

Aprelin 22-dək davam edəcək forumda mühazirələr, yaradıcılıq görüşləri keçirilir.

# Bişkekdə azərbaycanlı heykəltəraşın sərgisi keçirilir



Aprelin 16-da Qapar Aytiyev adına Qırğızıstan Milli İncəsənət Muzeyində azərbaycanlı heykəltəraş Teymur Rüstəmovun fərdi yaradıcılıq sərgisi açılıb. Mayın 2-dək davam edəcək sərgidə tanınmış heykəltəraşın son dörd ildə ərsəyə gətirdiyi yeni əl işləri nümayiş etdirilir.

Məlumat üçün qeyd edək ki, Teymur Rüstəmov Bakıdakı Xocalı abidəsinin həmmüəllifi (atası Aslan Rüstəmov və qardaşı Mahmud Rüstəmov ilə birlikdə), görkəmli şəxslərin büst və qəbirüstü abidələrinin müəllifidir. 2012-ci ildə Azərbaycan Respublikasının "Tərəqqi" medalı ilə təltif olunub.

Heykəltəraş 2017-2021-ci illərdə ailə vəziyyəti ilə əlaqədar (həyat yoldaşı Aytən Rüstəmova Avropa Yenidənqurma və İnkişaf Bankının Qırğızıstan, Tacikistan və Türkmənistan üzrə regional direktoru vəzifəsinə təyin olunub) Tacikistanda yaşayıb və orada yaradıcı fəaliyyətlə məşğul olub. 2021-ci ildən Bişkekdə yaşayır və yaradıcı fəaliyyətini davam etdirir.

**Aydın Məmmədov**
**M.F.Axundzadə adına Şəki Mədəniyyət Mərkəzinin əməkdaşı**

## Çay kitabxanası

Türkiyənin Rizə şəhərindəki Rəcəb Tayyib Ərdoğan Universitetində mövzu dairəsinə görə unikal kitabxana açılıb. "TRT Haber"in məlumatına görə, ölkədə "çay paytaxtı" kimi tanınan şəhərdə fəaliyyətə başlayan yeni kitabxana da elə bu mövzunu əhatə edir.




Hələlik kitabxanada çay haqqında türk və ingilis dillərində 938 adda kitab, jurnal, doktorluq dissertasiyası, çaydan bəhs edən məqalə və araşdırma toplanıb. Bu nəşrlərdə çayın sortlarına, becərmə tarixinə və mədəniyyətinə dair bilgilər yer alıb.

Universitetin rektoru H.Karamanın dediyinə görə, belə tematik kitabxanalar oxucuya hər hansı informasiyanın axtarışına çox vaxt itirmədən gərəkli məlumat tapmaqda kömək edir: "Biz çalışmışıq ki, universitetin çay kitabxanasında çox sevilən bu içkiyə aid türk dilində və xarici dillərdə olan materialların əksəriyyətini toplayaq. Nəşrlərin bir hissəsi bizim səfirlik və konsulluqların köməyi sayəsində müxtəlif ölkələrdən daxil olub. Kitab fondumuzu daha da zənginləşdirmək üçün bu proses davamlı olacaq. Bundan başqa, universitetimizdə 734 əsərdən ibarət Qara dəniz kitabxanası da var...".

**G.Mirməmməd**

## Rusiya xaricdə sərgilənən bütün eksponatlarını ölkəyə gətirir

Rusiyanın dünya ölkələrində sərgilənən muzey eksponatları geri qaytarılır. Bu barədə Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy bildirib.




Onun sözlərinə görə, ümumilikdə 27 ölkədə nümayiş olunan Rusiyanın muzey eksponatlarının hamısı gətiriləcək. Müvafiq qərarın verilməsindən sonra ilk olaraq Parisdə nümayiş etdirilən "Morozovlar kolleksiyası. Müasir incəsənət şedevrləri" sərgisinin əsərləri Rusiyaya gətirilib. "Lui Vitton" Fondunda təqdim olunan sərgi 2021-ci ilin sentyabrında Fransa Prezidenti Emmanuel Makronun iştirakı ilə açılmışdı və aprelin 3-dək davam edib.

Qeyd edək ki, Rusiya muzey və qalereyalarının xaricdəki bütün kolleksiyalarını geri qaytarmaq barədə qərar bu yaxınlarda İtaliyadan gətirilən eksponatların Finlandiyada gömrük orqanları tərəfindən saxlanılmasından sonra verilib.

İtaliyanın Milan və Udine şəhərlərindəki sərgilərdən geri gətirilən Rusiya Dövlət Ermitajı (Sankt-Peterburq), Dövlət Tretyakov Qalereyası və A.S.Puşkin adına Dövlət Təsviri İncəsənət Muzeyinin eksponatları Rusiyaya qarşı tətbiq edilən sanksiyaları çərçivəsində saxlanılmışdı. Gömrükdə əl qoyulan incəsənət əsərlərinin ümumi dəyəri 42 milyon avrodan çox idi.

Hadisə böyük rezonans doğurdu. Rusiyanın Mədəniyyət və Xaric İşlər nazirlikləri bəyanat yayaraq muzey əşyalarının saxlanılmasını hüquqi özbaşınalıq olduğunu bildirdi. Rusiya tərəfi bu qəbil hərəkətlərə qarşı sanksiyaçı ölkələrin mədəni irsi ilə bağlı adekvat addımlar atacağını da diqqətə çatdırdı. Xeyli çək-çevirdən sonra sənət əsərləri Finlandiya sərhədindən buraxıldı. Bundan sonra Rusiya xaricə muzey kolleksiyaları göndərməyi dayandırıb.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

*Zamanın səhifələrində qalan olaylar, faktlar...*

### 614 il əvvəl...

**21 aprel 1408-ci ildə** Sərdrud döyüşündə (Təbrizin yaxınlığında kənd) Qaraqoyunlu dövlətinin başçısı Qara Yusifin qoşunları Teymurləngin oğlu Miranşahın qoşunlarını məğlub edib, Miranşah özü isə öldürülüb. Azərbaycan torpaqlarında Teymurilərin (Əmir Teymur 1405-də vəfat etmişdi) hökmranlığına son qoyulub. Bir qədər sonra Şirvanşahlar istisna olmaqla bütün Azərbaycan torpaqları Qaraqoyunlu dövlətinin tərkibinə daxil edildi.

### 239 il əvvəl...

**19 aprel 1783-cü ildə** II Yekaterina Krımın Rusiyaya birləşdirilməsi barədə manifest imzalayıb. 1768-1774-cü illər müharibəsində Rusiyaya məğlub olan Osmanlı Krım xanlığına nəzarəti itirmişdi.

### 195 il əvvəl...

**20 aprel 1827-ci ildə** İranla müharibə (1826-1828) gedişində Azərbaycanın cənubuna doğru irəliləyən rus qoşunları Araz çayı üzərindəki Xudəfərin körpüsünü (Cəbrayıl rayonu ərazisində) tutublar. Körpünün ələ keçirilməsi rus qoşunlarının Naxçıvan xanlığına hücumlarına imkan yaratdı. May ayında Naxçıvan işğal olundu.

### 124 il əvvəl...

**21 aprel 1898-ci ildə** İspaniya ilə ABŞ arasında müstəmləkələrin bölüşdürülməsi ilə bağlı müharibə başlayıb. İspaniyanı Latın Amerikası və Cənub-Şərqi Asiyadan sıxışdırmağı niyyətləyən ABŞ üç ay sürən müharibədə Kuba, Puerto-Riko və Filippini ələ keçirdi. Bu, ABŞ-ın ilk uğurlu müstəmləkəçilik müharibəsi idi.

### 107 il əvvəl...

**22 aprel 1915-ci ildə** I Dünya müharibəsi tarixində ilk dəfə zəhərli qazdan silah kimi istifadə olunub. Belçikanın İpr şəhəri yaxınlığında döyüşdə alman qoşunları ingilis-fransız qüvvələrinə qarşı xlor tərkibli zəhərli qazdan istifadə ediblər. Sonralar iprit adını alan qaz müxtəlif ölkələrin kimyəvi silah arsenalında yer tutdu.

### 104 il əvvəl...

**22 aprel 1918-ci ildə** Zaqafqaziya Seyminin azərbaycanlı, erməni və gürcü deputatları paytaxtı Tiflis olmaqla Zaqafqaziya Demokratik Federativ Respublikasının yarandığını elan ediblər. Seymdə azərbaycanlı (44 nəfər) deputatların fraksiyasına M.Rəsulzadə rəhbərlik edirdi. Gürcü A.Çxengelinin başçılıq etdiyi hökumətə Azərbaycandan F.Xoyski, K.Məlik-Aslanov, N.Yusifbəyli, M.H.Hacinski və M.Heydərov daxil idilər. Federasiya bir ay sonra dağıldı. Mayın 26-da Gürcüstan, 28-də isə Azərbaycan və Ermənistan müstəqilliyini elan etdi.

### 102 il əvvəl...




**23 aprel 1920-ci ildə** Atatürkün başçılığı altında Ankarada Türkiyə Böyük Millət Məclisinin (TBMM) ilk toplantısı açılıb. TBMM-nin yaradılması ilə Türkiyədə yadelli işğalçılara qarşı Qurtuluş savaşı mühüm mərhələyə qədəm qoydu. Cümhuriyyət qurulandan sonra Atatürkün tövsiyəsi ilə 23 aprel Türkiyədə "Milli Müstəqillik və Uşaq Günü" elan edildi.

### 55 il əvvəl...

**21 aprel 1967-ci ildə** Yunanıstanda hərbi çevriliş olub, Kral II Konstantin devrilib. Ölkədə "Qara polkovniklər diktaturası" bərqərar olub. 1974-cü ilədək Yunanıstanda hərbi rejim hakimiyyətdə olub.

### 44 il əvvəl...

**21 aprel 1978-ci ildə** Azərbaycan SSR Ali Sovetinin sessiyasında Azərbaycanın yeni Konstitusiyası qəbul edilib. Konstitusiyada (maddə 73) Azərbaycan dili respublikanın dövlət dili təsbit olunub.

### 33 il əvvəl...

**21 aprel 1989-cu ildə** Pekinin Tyanyanmen meydanında təxminən 100 min tələbənin etiraz aksiyası başlayıb. Bu, ÇXR tarixində ən böyük hökumət əleyhinə çıxış idi. Bir neçə gün sürən aksiya meydana tankların yeridilməsi ilə dağıdıldı.

### 27 il əvvəl...

**19 aprel 1995-ci ildə** ABŞ-ın Oklaxoma şəhərindəki biznes mərkəzində dəhşətli terror aktı baş verib. Partlayış nəticəsində 168 nəfər (o cümlədən 12 uşaq) həlak olmuşdu. Ölkəni sarsıdan terroru iki amerikalı törətmişdi. 1997-ci ildə məhkəmə ABŞ ordusunun sabiq serjantı Timoti Makvey və Terri Nikols barəsində ölüm hökmü çıxardı.

### 23 il əvvəl...

**23 aprel 1999-cu ildə** NATO-nun Vaşinqton sammitində keçmiş sosialist ölkələri Çexiya, Polşa və Macarıstanın alyansa qəbulu mərasimi keçirilib. NATO-nun Şərqə doğru genişlənməsi başlayıb.

**Hazırladı: V.Orxan**

**Elan**

Azərbaycan Dövlət Rəssamlıq Akademiyası Dekorativ-tətbiqi sənət fakültəsinin I kurs 106-cı qrup tələbəsi Müxtəsimi Ayşə Məhəmməd qızına verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1130
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641